# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

10 fevral 2026-cı il, çərşənbə axşamı
№ 025 (7092)
Qiymәti 60 qәpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# 31 şirkətin nümayəndəsi Azərbaycanda...

## Azərbaycan Prezidenti Vaşinqtona dəvət olundu

### İlham Əliyev: Gözlədiyimiz nəticə Amerika şirkətləri ilə strateji tərəfdaş kimi işləməkdir, çünki onlar bu sahədə liderdir



Bax səh. 2

## Strateji tərəfdaşlıqdan qlobal əməkdaşlığa

Bax səh. 3

## Şərqdə daha bir ilkə imza atılan gün...

İnsan cinayət törədibsə, mütləq qaydada onun cəzasını da çəkməlidir. Ancaq, eyni zamanda, hər bir insanın yaşamaq hüququ var. Tarixin bu günündə - 10 fevral 1998-ci ildə Milli Məclisdə ölüm hökmünün ləğvi ilə bağlı müvafiq qanun layihəsinin dəstəklənməsi Azərbaycanda insan hüquq və azadlıqlarının qorunmasına necə böyük önəm verildiyini əyani şəkildə təsdiqləyir. Artıq 28 ildir ki, respublikamızın məhkəmələrində heç bir məhkum barəsində ölüm hökmü çıxarılmır...

Hazırda dünya üzrə aralarında inkişaf etmiş ölkələr də olmaqla 30-dək dövlətdə ölüm hökmü qüvvədə saxlanılır. Azərbaycanın adı isə Şərqdə ölüm hökmünü ləğv edən dövlət kimi tarixə düşüb.

Respublikamızda ölüm hökmünün ləğvi təşəbbüsü ilə ilk dəfə ulu öndər Heydər Əliyev çıxış edib. Sabiq Prezident Heydər Əliyev 1998-ci il fevralın 3-də ölüm hökmünün ləğv olunması haqqında təşəbbüslə

Bax səh. 6

## Qərbi Azərbaycan İcması ABŞ vitse-prezidentinə müraciət edib




Bax səh. 6

Hidayət

## Anar mənə zəng edəndə İstanbuldaydım...

Mən 9 il ölkəmizin Qırğızıstanda fövqəladə və səlahiyyətli səfiri oldum, bu müddətdə həm də ölkə rəhbərimizin, həm də çalışdığım ölkənin liderlərinin (bu müddətdə orda 3 Prezident dönəmində işlədim) fəaliyyətimə dəfələrlə yüksək qiymətlərini qeyd etmək istəmirəm, təkcə onu deyirəm ki, həmin müddətdə möhtərəm Dövlət Başçımızın Sərəncamı ilə 2014-cü ildə "Azərbaycan Respublikası Prezidentinin Fəxri Fərmanı", 2019-cu ildə ikinci dərəcəli "Dövlətə xidmətə görə" ordeni, diplomatik fəaliyyətdən dönəndən az sonra isə... "Heydər Əliyev - 100" yubiley medalı ilə təltif olundum.

Çalışdığım ölkə də ordakı fəaliyyətimi yüksək dəyərləndirdi: bir sıra yüksək mükafatlarla yanaşı, fəaliyyətim başa çatanda "Qırğız Respublikasının Nazirlər Kabinetinin Fəxri Fərmanı" ilə təltif olundum.

Bax səh. 5

## 198 il əvvəl...

### Türkmənçay müqaviləsi ilə təsdiqlənən tarixi ədalətsizlik

Bax səh. 4

## "Yaşıl" inkişaf üçün...

Bax səh. 5

## Ermənistan sülhə sadiqdirsə...

Bax səh. 6

## Fransaya çağırış!

Bax səh. 6

## Omanda razılıq əldə edilmədi...



Bax səh. 7

## Neftin qiymətlərini kim və necə təyin edir?




Bax səh. 7

## T.Y.Budaqovun Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin sədri vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq qərara alıram:

Tahir Yaqub oğlu Budaqov Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin sədri vəzifəsindən azad edilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 9 fevral 2026-cı il**

## T.Y.Budaqovun Bakı şəhəri Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq qərara alıram:

Tahir Yaqub oğlu Budaqov Bakı şəhəri Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 9 fevral 2026-cı il**

# 31 şirkətin nümayəndəsi Azərbaycanda...

## Azərbaycan Prezidenti Vaşinqtona dəvət olundu

## İlham Əliyev: Gözlədiyimiz nəticə Amerika şirkətləri ilə strateji tərəfdaş kimi işləməkdir, çünki onlar bu sahədə liderdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 9-da ABŞ Ticarət Palatasının beynəlxalq üzvlərlə əlaqələr, Yaxın Şərq və Türkiyə üzrə baş vitse-prezidenti Kuş Çoksinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinə Palatanın Yaxın Şərq, Mərkəzi Asiya və Türkiyə üzrə vitse-prezidenti Cennifer Miel, həmçinin "Apple", "Ardea Energy Technologies Inc.", "Ericsson AB", "ExxonMobil", "Herbalife", "Illumina", "Meta", "Visa", "Wabtec", "Baker Hughes", bp, "Boeing Global", "Honeywell", "J.P.Morgan", "Lummus Technology", "Marriott", "Mastercard", "Shell International", "Azerbaijan Coca-Cola Bottlers" MMC və "Motorola Solutions" şirkətlərinin rəhbər şəxsləri daxildir.







Qonaqları salamlayan Prezident İlham Əliyev dedi: "Sabahınız xeyir, xoş gəlmisiniz. Sizi görmək çox xoşdur. Şadam ki, böyük nümayəndə heyəti ilə səfərə gəlmisiniz. Bir neçə ay bundan öncəki görüşümüzü xatırlayıram və məmnunam ki, siz dəvətimizi qəbul edərək ölkələrimiz arasında münasibətlərin çox fəal inkişaf etdiyi vacib bir vaxtda Azərbaycana səfərə gəlmisiniz.

Bildiyiniz kimi, biz hazırda ikitərəfli əlaqələrin çox ümidverici və fəal olan yeni mərhələsinə qədəm qoyuruq və əlbəttə, ABŞ Vitse-prezidentinin səfəri ərəfəsində sizin nümayəndə heyətinizin gəlişi də olduqca əhəmiyyətlidir. Çünki bizim təmaslarımızın bir hissəsi biznes, sərmayə, ticarət münasibətləri və strateji gündəliyimizin tərkib hissəsi olan bir sıra digər məsələlər üzərində cəmləşib.

Bilirəm ki, müxtəlif dövlət rəsmiləri ilə sizin çoxsaylı görüşləriniz nəzərdə tutulub. Əminəm ki, onlar sizin bütün suallarınızı cavablandıracaqlar. Düşünürəm ki, bu səfərin nəticəsində biz müxtəlif istiqamətlərdə daha fəal təmasların şahidi olacağıq. Onu da bilirəm ki, siz ABŞ iqtisadiyyatının müxtəlif seqmentlərini təmsil edirsiniz və bu, çox faydalı olacaq, çünki bu günə qədər iqtisadi əlaqələrimiz bizim görmək istədiyimiz səviyyədə deyil.

Bir daha xoş gəlmisiniz, sizə ölkəmizdə xoş vaxt keçirməyi arzulayıram. Bilirəm ki, mütləq əksəriyyətiniz üçün bu, ilk səfərdir və bu, Azərbaycan haqqında daha çox məlumat əldə etmək üçün yaxşı fürsətdir. Xoş gəlmisiniz".

x x x

Qonaqlar, ilk növbədə, qəbula görə dövlətimizin başçısına minnətdarlıqlarını bildirdilər. Ölkəmizə səfər etməkdən məmnunluqlarını ifadə edən bir çox nüfuzlu şirkətin təmsilçiləri Azərbaycanla əməkdaşlığı genişləndirmək niyyətində olduqlarını dedilər. Onlar təmsil etdikləri şirkətlərin fəaliyyəti, həmçinin ölkəmizlə həyata keçirdikləri əməkdaşlıq barədə məlumat verdilər.

x x x

**Kuş Çoksi:** Zati-aliləri, çox sağ olun. Biz Sizi biznes icmasını təmsil edən daha da böyük nümayəndə heyəti ilə görüşmək üçün Vaşinqtona dəvət etmək istəyirik. Azərbaycana çox böyük maraq var. Hesab edirəm ki, hər şey iki il bundan əvvəl COP-dan başladı və COP çox uğurlu bir tədbir oldu və Sizin xatırlatdığınız kimi bu COP-da dünyanın ehtiyacı olan neftin və ənənəvi enerjinin və yeni enerji mənbələrinin önəmi qeyd olundu. Bu gün burada bütün sektorlardan - əsas sektorlardan, yaranmaqda olan sektorlarda fəaliyyət göstərən şirkətlərin nümayəndələri yığışıb. O vaxtdan bəri biz Azərbaycana çox böyük marağın olduğunun şahidiyik. Sizin nazirlər həmişə gələ bilərlər. Qarşılıqlı əlaqə üçün nə qədər çox imkan olsa, Azərbaycanda Amerika şirkətləri üçün mövcud olan fürsətlərin onlar tərəfindən qavranılması bir o qədər də çox olacaq. Gələn dəfə Siz Nyu-Yorkda olanda, - Sizin necə məşğul olduğunuzu bilirəm, lakin biz əvvəlcədən planlaşdıracağıq, - səfəriniz çərçivəsində bizim üçün dəyirmi masanın təşkilində yardımçı olmağı xahiş edəcəyik. Bəlkə Nyu-Yorka bir gün əvvəl gələ bilərsiniz, - hətta bu, bazar günü də ola bilər, - Sizin fikirlərinizi, şirkətlərlə bağlı fikirlərinizi öyrənmək istəyirik.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm. Bu dəvətə görə çox sağ olun. Bir daha bizimlə birlikdə olduğunuz üçün təşəkkür edirəm. Mən bizi ziyarət edən şirkətlərin siyahısına nəzər saldım və sizin qeydlərinizi nəzərə alaraq deyə bilərəm ki, bu şirkətlərin bir çoxu ilə bizim uzun illər ərzində səmərəli əməkdaşlığımız mövcuddur. Şirkətlərin bəziləri yenidir və bu da tamamilə təbiidir. Çünki birincisi, müstəqilliyinin erkən illərindən Azərbaycan beynəlxalq tərəfdaşlığa çox açıq idi və bir çox beynəlxalq şirkətlərlə, o cümlədən ABŞ şirkətləri ilə yaxşı təmaslar qurmuşdur. Ona görə də bu şirkətlərin adlarının mənə çox tanış gəlməsi olduqca təbiidir.

Digər tərəfdən, keçən ilin avqust ayında Vaşinqtonda mənim Prezident Trampla görüşümdən qaynaqlanan ABŞ-Azərbaycan münasibətlərinin fəal inkişaf etdiyi bu mərhələdə əməkdaşlıq etdiyimiz sahələrin diapazonunu genişləndirəcəyimiz də təbiidir. Keçən ilin avqust ayında biz Prezident Trampla Azərbaycan və ABŞ arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması üzrə sənədi imzaladıq və burada xüsusi bəndlər var. O vaxtdan bəri mən ticarət, iqtisadiyyat, investisiyalar, enerji, süni intellekt, müdafiə sənayesində əməkdaşlıq və digər sahələri müzakirə etmək üçün Vaşinqtona hökuməti təmsil edən dörd nümayəndə heyətini göndərdim. Hökumət rəsmiləri arasında çoxsaylı təmaslar olmuşdur və mənim Prezident Trampla sonuncu görüşüm keçən ay Davosda oldu, baxmayaraq ki, onun qrafiki çox sıx idi və o, çox qısa müddətlik orada idi. Onun Azərbaycan Prezidenti ilə görüşməsi bir daha bizə və bütün regiona bu münasibətlərin bizim üçün necə də önəmli və onların necə də mehriban olduğunu nümayiş etdirir.

Beləliklə, enerji, ticarət, investisiyalardan ibarət olan ənənəvi əməkdaşlıq sahələri ilə yanaşı, biz indi rəqəmsal transformasiya, süni intellektə aid çox vacib sahələr üzərində çalışırıq və ümid edirik ki, Amerika şirkətləri bizim əsas tərəfdaşlarımız olacaq. Artıq yaxşı təmaslarımız var və yeri gəlmişkən, siz bizim hökuməti təmsil edən nümayəndə heyətlərinin birinin səfəri zamanı bu barədə qeydlərinizi bildirdiniz. Rabitə, süni intellekt, data mərkəzlərinin yaradılması sahəsində fəaliyyət göstərən şirkətlərlə geniş bir görüş oldu. İndi bu, bizim üçün prioritet məsələlərdən biridir. Hesab edirəm ki, bizim çoxlu üstünlüklərimiz var.

Birincisi, coğrafi yerləşmə. İkincisi, çox asan olmayan dövrdə yaradılmış neft və qaz boru kəmərləri, dəmir yolları, elektrik kabel xətləri kimi mövcud kommunikasiya infrastrukturu. Sonra ən önəmli məsələlərdən biri bizim istifadə etmədiyimiz, istehlak etmədiyimiz və hələ ki, ixrac etmədiyimiz çoxlu elektrik enerjimiz var. Hələ ki, söhbət mövcud olan təqribən 2 giqavat elektrik enerjisinin istehsalından gedir. Azərbaycanın yerləşdiyi daha geniş regionda biz hər hansı növ enerji mənbələrinin idxalından asılılığı olmayan yeganə ölkəyik. Biz özümüzü neft, qaz, neft məhsulları, neft-kimya məhsulları, elektrik enerjisi ilə təmin edirik və indicə qeyd etdiklərimin hamısını ixrac edirik. Beləliklə, bir çox ölkələr üçün çox faydalı olacaq artan ixracla yanaşı, bizim hədəfimiz məhz budur. Bu gün, yeri gəlmişkən, biz təbii qazı boru kəmərləri ilə 16 ölkəyə ixrac edirik və qazın boru kəməri ilə təchizatı nöqteyi-nəzərindən dünyada birinci yerdəyik. Lakin bununla yanaşı, biz süni intellekt və rəqəmsal transformasiya sahəsində tərəfdaşlarımızın olması üçün Amerika və digər ölkələrdən olan aparıcı şirkətləri cəlb etmək məqsədilə buradakı enerji potensialımızdan istifadə etmək istəyirik. Qazıntı yanacağına gəldikdə, - hansı ki, müəyyən siyasi gündəmə görə uzun illər ərzində ayrı-seçkiliyə məruz qalmışdır, - biz şadıq ki, hər bir digər sahədə olduğu kimi, Prezident Trampın siyasəti realist ssenariyə söykənir, populizmdən çox uzaqdır və real vəziyyətə əsaslanır. Dünya qazıntı yanacağı olmadan yaşaya bilməz və qazıntı yanacağı ehtiyatları zəngin olan ölkələr buna görə günahlandırılmamalıdır. Siz COP-u qeyd etdiniz, COP-a ev sahibliyi edən ölkənin rəhbəri olaraq mənim mesajlarımdan biri o idi ki, biz neft-qaza malik olduğumuza görə günahlandırılmamalıyıq.

Mən, həmçinin dedim ki, bir çox ölkələr COP keçirib və həmin ölkələr Azərbaycandan 10 dəfə çox neft və qaz istehsal edir, lakin onlar media hücumlarına məruz qalmayıblar. Mənim mesajım ondan ibarət idi ki, ölkələr karbohidrogen ixracından gələn gəlirləri necə istifadə etdiklərinə görə dəyərləndirilməlidirlər. Hər kəs görə bilər ki, Azərbaycanda sərvətin bölüşdürülməsi çox ədalətli şəkildə həyata keçirilir. İkincisi, onların iqlim məsələsinə töhfəsi nədən ibarətdir? Bizim isə azı 100 il müddətinə təkcə daxili istehlak üçün deyil, həm də ixrac üçün təbii qaz ehtiyatları ilə təmin olunduğumuz halda bərpaolunan enerjiyə investisiya yatırılması və investisiya cəlb olunması həqiqətən də məsuliyyətimizi nümayiş etdirir.

Söylədiyim kimi, 2 giqavat enerji artıq mövcuddur və imzalanmış müqavilələrə əsasən - anlaşma memorandumlarına deyil, müqavilələrə əsasən, 2032-ci ilə qədər biz əlavə 7-8 giqavat Günəş və külək enerjisinə sahib olacağıq. Qeyd etdiyim kimi, bütün bunlar artan iqtisadiyyat, inkişaf edən sənaye, xüsusilə bizim qlobal süni intellekt qovşaqlarından və məlumat mərkəzlərindən biri olmaq hədəfimiz şəraitində daxili istehlak üçün əlçatan olacaq. Üstəlik, bu, etibarlı elektrik və qaz təchizatı mənbələri çatışmazlığından və ya olmamasından əziyyət çəkən daha çox ölkələrə kömək edəcək. Üzərində işlədiyimiz layihələrdən biri də Azərbaycandan Avropaya Qara dəniz vasitəsilə kabel xəttinin, həmçinin Prezident Trampın irəli sürdüyü və onun adını daşıyan, Azərbaycanla Ermənistan arasında sülhə nail olunduqdan sonra reallaşması mümkün olan TRIPP layihəsi - Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu vasitəsilə ötürücü xətlərin, mövcud olanlardan əlavə, yeni ötürücü xətlərin çəkilməsidir.

Biz bağlantıları da diqqət mərkəzində saxladığımız mühüm sahələrdən biri hesab edirik. Nəqliyyat və logistika infrastrukturumuzu lazımi səviyyəyə çatdırmaq üçün indiyədək çox işlər görülüb. Hazırda bizim dəniz limanımızın yükaşırma qabiliyyəti 15 milyon tondur və onun genişləndirilməsi yükaşırma qabiliyyətini 25 milyon tona gətirib çatdıracaq. Dəmir yollarımız müasirləşdirilir. Ermənistan ərazisindən keçəcək və sonra Orta Dəhlizin daha bir davamına çevriləcək yeni dəmir yolu tikilir. Doqquz beynəlxalq hava limanı, regionda ən böyüklərdən biri, bəlkə də ən böyük olan yükdaşıma hava yolu şirkəti - bütün bunlar artıq bir üstünlükdür.

Xüsusilə Azərbaycanla Mərkəzi Asiya, Azərbaycanla Avropa arasında bağlantılara artan marağı da nəzərə alsaq, kəmərlərin inşasında təcrübəmizi diqqətə alsaq, biz bəlkə də ölkələri bir araya gətirən ölkələrdən biriyik və ya yeganə ölkəyik. Kəmər inşa etmək çətindir, məsrəflidir və bizim coğrafiyamızda dağlardan keçib, sonra lazım gələndə dənizin dibi ilə çəkmək həqiqətən də böyük çətinlikdir. Üstəlik, xüsusilə bir neçə ölkədən keçən, Xəzər dənizindən başlayıb İtaliyada bitən, uzunluğu 3500 kilometr olan kəmər inşa edilirsə, hər kəslə əlaqələriniz, yaxşı əlaqələriniz olmalıdır. Bu geniş regionda belə təcrübəyə ancaq biz malikik. İş onda deyil ki, mən Azərbaycan haqqında yaxşı sözlər deyirəm, bu reallıqdır.

Bir çox ölkələri birləşdirən layihələrdə diplomatiya, bacarıq, təcrübə və artıq nəticələr olmalıdır. Bizim vəziyyətimizdə biz bunların hamısına malikik. Mən əminəm ki, sizin missiyanızın nəticəsi tezliklə praktiki layihələrdə həyata keçəcək. Sözsüz ki, görüşəcəyiniz hökumət üzvləri bizim planlarımızın nədən ibarət olduğu, nələrin işlənmə mərhələsində olduğu barədə sizə daha ətraflı məlumat verəcəklər. Düşünürəm ki, bu cür missiyalar mütəmadi olaraq baş tutmalıdır. Yenidən Amerikaya səfər edəndə sizinlə görüşməyə hazıram. Həmçinin yenilənmiş məlumatları almaq və daha hansı işləri görə biləcəyimizə nəzər salmaq üçün sizdən buraya azı ildə bir dəfə gəlməyinizi xahiş edirəm.

x x x

bp şirkətinin Amerika üzrə kommunikasiya və xarici əlaqələr üzrə baş vitse-prezidenti Meri Strit ölkəmizlə bp arasında uzun illərdir davam edən uğurlu tərəfdaşlığı qeyd etdi. O, Azərbaycanda müşahidə etdikləri müsbət investisiya mühitinə toxundu, yerli kadrların hazırlanması məsələsini diqqətə çatdırdı. "Söhbət təkcə müsbət investisiya mühitindən deyil, həm də işçi qüvvəsindən gedir. Buna görə təşəkkür edirəm", - deyən qonaq ölkəmizlə güclü tərəfdaşlığı davam etdirmək niyyətində olduqlarını bildirdi.

x x x

Prezident İlham Əliyev də öz növbəsində Azərbaycanla bp arasında əməkdaşlığı vurğulayaraq dedi: "Təşəkkür edirəm. Sizin də qeyd etdiyiniz kimi, biz də 30 ildən artıq davam edən tərəfdaşlığı yüksək qiymətləndiririk. Bu, ölkənin transformasiyasında mühüm rol oynadı. Çünki bp və Azərbaycan 1994-cü ildə birgə fəaliyyətə başlayanda Azərbaycan ciddi problemləri olan ölkə idi. Həmin dövrdə bizim Ermənistanın təcavüzü nəticəsində etnik təmizləməyə məruz qalaraq didərgin salınmış bir milyon evsiz insanımız var idi. Büdcəmizdə vəsait sıfır idi. Elektrik enerjisi kəsintilərimiz var idi, elektrik enerjisi çatışmırdı, hətta neft hasilatı sürətlə azalırdı və uğur qazanmaq perspektivi çox aşağı idi. Beynəlxalq neft şirkətlərindən, əsasən bp və başqalarından investisiyalar cəlb olunması bizim həyatda qalmağımız və dövlət qurmağımız üçün yeganə yol idi. Beləliklə, bp və digər şirkətlərin bizə etimadı mühüm rol oynadı, biz bunu heç vaxt unutmayacağıq. Həmin vaxtdan bəri 30 ildən çox müddətdə heç bir narazılıq və ya heç bir hüquqi məsələ olmayıb. Beləliklə, bu, ev sahibi ölkə ilə aparıcı enerji şirkəti arasında əməkdaşlığın yaxşı nümunəsidir.

İndi əməkdaşlıq bərpaolunan enerjiyə transformasiya olunur. 2020-ci ilədək işğal altında olan Cəbrayıl şəhərində bp 240 meqavatlıq Günəş enerji stansiyasının yaradılmasında iştirak edir. Səngəçalda ən böyük neft-qaz terminalının karbonsuzlaşdırılması da bp tərəfindən yaşıl gündəliyə böyük töhfədir. Çoxlu başqa planlar da var, mövcud və yeni layihələr var, buraya qaz hasilatının artırılması da daxildir. Ümidvarıq ki, bu il dərinsulu "Azəri-Çıraq-Günəşli" layihəsində bunun şahidi olacağıq. Həmçinin neft hasilatının sabitləşdirilməsi bizim üçün əhəmiyyət kəsb edir. Biz çox səmərəli şəkildə işlədiyimiz və işləməyə davam etdiyimiz bütün enerji şirkətləri ilə yaxşı əlaqələr qurmuşuq. Düşünürəm ki, məhz buna görə neft hasilatının obyektiv səbəblərdən aşağı düşməsinə baxmayaraq, Azərbaycana investisiya yatırmağa maraq hələ də çox yüksəkdir.

Mən "Exxon"un nümayəndələrini görürəm. O da Azərbaycanda investisiya layihələrinə qoşulan ilk şirkətlərdən biridir, hazırda yeni layihələr üzərində işləyir. Ümidvaram ki, yaxşı nəticələr əldə olunacaq. Ötən ilin avqustunda Vaşinqtona səfərim zamanı çox ümidverici və çox cəlbedici layihə ilə bağlı Anlaşma Memorandumunu imzaladıq. Əgər uğurlu olarsa, ümidvarıq ki, bu, bizə neft sənayemizi inkişaf etdirmək üçün əlavə imkanlar yaradacaq, eyni zamanda, həmişə olduğu kimi, neft satışından əldə etdiyimiz vəsaiti qeyri-neft iqtisadiyyatına investisiya yatırmaq üçün bizə əlavə imkan verəcək.

Yeri gəlmişkən, iqtisadiyyatı şaxələndirmək bizim qarşımıza qoyduğumuz hədəflərdən biridir. Biz yaxşı nəticələr görürük. Mən indicə bu ilin yanvarının statistikasına baxdım, bizim qeyri-neft və qaz sənayemiz demək olar ki, 8 faiz artıb. Bu, həmin şaxələndirmə sayəsində mümkün olub. Beləliklə, ənənəvi enerji mənbələri ilə bağlı müqavilələr və əməkdaşlıq bizə vəsait toplamaq və yenidən investisiya yatırmaq imkanı verir".

x x x

"Visa" şirkətinə əməkdaşlığa görə təşəkkür edən və əlaqələrin perspektivinə toxunan Prezident İlham Əliyev dedi: "Mən "Visa" ilə çox məhsuldar əməkdaşlıq barədə hökumət qurumlarımızdan məlumat almışam və biz bundan məmnunuq. Əlbəttə ki, siz burada müxtəlif tərəfdaşlarla - İqtisadiyyat Nazirliyi, Mərkəzi Bank, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və bir çox digər təşkilatlarla işləyirsiniz. Gündəliyimiz, planlarımız və burada görülən işlər barədə məlumatınız var. Biz birmənalı olaraq, müasirləşməni davam etdirmək, insanların gündəlik həyatını daha rahat etmək üçün gələn illərdə "Visa" ilə sıx işləyəcəyik. Çox sağ olun".

Yekunda çıxış edən Prezident İlham Əliyev Azərbaycanda yaradılmış əlverişli investisiya mühitindən bəhs etdi, ölkəmizin Avropanın enerji təhlükəsizliyində oynadığı roldan danışaraq dedi: "Bizimlə olduğunuza görə bir daha təşəkkür edirəm. Mən şirkətlərin siyahısına baxdım və dediyim kimi, bizimlə uzun illər çalışan şirkətləri gördüm. Onlar, həmçinin bunu öz çıxışlarında qeyd etdilər. Məsələn, "Apple", "Baker Hughes", "Boeing", bp, "Coca-Cola", "Ericsson", "Exxon", "J.P. Morgan", "Honeywell", "Marriott", "Mastercard", "Visa" və mənim üçün bəzi digər yeni adlar da var. Beləliklə, düşünürəm ki, mövcud əməkdaşlığı artırmaq üçün yaxşı tərkib var. Ölkəmizə ilk dəfə səfər edən şirkətlər üçün isə Azərbaycanda işgüzar fəaliyyət aparmaq üçün bu görüş yaxşı istinaddır. Ümumiyyətlə, ölkəmizdə çox müsbət biznes mühiti mövcuddur. Biz nəhəng sərmayələri cəlb etmişik. Əgər ölkənin ölçüsünə və əhalinin sayına baxsanız, son iki onillik ərzində 350 milyardlıq sərmayə həqiqətən çox böyük rəqəmdir. Hamımızın bildiyi kimi, sərmayələr istənilən ölkənin inkişafında əsas aparıcı qüvvədir. Biz və qanunvericiliyimiz hər zaman xarici sərmayələrə açıq olub. O cümlədən 30 il əvvəl imzalanmış pay bölgüsü sazişlərinə gəldikdə, heç bir söz belə dəyişməyib.

Bilirəm ki, belə hal dünyanın hər yerində olmur. Bəzən siz danışıqlar aparmaq, müəyyən güzəştlərə getmək və sonra isə şərtlərə yenidən baxmaq istəyirsiniz. Burada heç zaman elə hal olmayıb, çünki biz tam əminik ki, xüsusi olaraq, dediyim kimi, 1990-cı illərin əvvəlində yoxsul vəziyyətdə olmuş ölkəyə etimad qurulmalı idi. Siz etimadı illər boyu qurmalısınız və yalnız bir səhv addım həmin etimadı poza bilər. Bir sözlə, biz həmin səhv addımı atmamışıq. Əksinə, bu gün, bizimlə işləyən şirkətlərin sayı artır. Beynəlxalq əlaqələrimizin coğrafiyası da genişlənir. Bir çox ölkələrlə imzalanmış strateji tərəfdaşlıq sənədləri, sazişlər və bəyannamələr var. Ölkələrdən bəziləri bir-biri ilə yaxşı münasibətdə deyil. Lakin mən hər zaman demişəm ki, Azərbaycan heç vaxt toqquşma yeri olmayacaq, əməkdaşlıq məkanı olacaq.

Hər kəs üçün kifayət qədər imkan olacaq və əlbəttə, ölkənin inkişaf gündəliyi göstərir ki, biz düz yoldayıq. Bu gün dediyim kimi, Birləşmiş Ştatlarla münasibətlər yeni, tamamilə əla dövrə qədəm qoyur. Biz çox həvəsliyik və şirkətlərimiz arasında birbaşa əlaqələri qurmaq üçün həmin böyük fürsətdən istifadə etmək istəyirik.

Azərbaycan bir çox ölkənin enerji təhlükəsizliyində mühüm rol oynayır. Onlardan 10-u Avropa İttifaqının üzvü, 11-i isə eyni zamanda, NATO-nun üzvüdür. Həmin ölkələr üçün hazırda Azərbaycan heç zaman görünmədiyi qədər daha mühüm tərəfdaşa çevrilir. Biz bütün öhdəliklərimizi yerinə yetiririk və siyasi gündəliyi heç zaman biznes ilə qarışdırmırıq və bu, bizim üçün qlobal enerji bazarında beynəlxalq fəaliyyətimizi genişləndirmək üçün yaxşı fürsətdir. Artıq müzakirə etdiyimiz daşımalar layihələri region üçün böyük imkanlar yaradır. Çünki biz 30 il ərzində Ermənistanın təcavüzünə və işğalına məruz qalma faktına baxmayaraq, Azərbaycan məhz ərazilərinin azad olunması, güc və siyasət vasitəsilə ərazi bütövlüyümüzü və suverenliyimizi tam bərpa etdikdən sonra birinci addım atdı və 2025-ci il avqustun 8-də Prezident Trampın köməyi ilə sülh quruldu.

Hazırda biz Ermənistana bütün tranzit yüklərə məhdudiyyətləri aradan qaldırmışıq. Çünki Ermənistanın etibarlı daşımalar, əlaqə marşrutları yoxdur və beləliklə, Azərbaycan tranziti onlar üçün çox əhəmiyyətlidir. Biz əməkdaşlığın ilk elementlərini qurmaq üçün Ermənistana neft məhsullarını təchiz etməyə başladıq.

İqtisadi vəziyyətimizə gəldikdə, o sabitdir. Xarici borc həcmi çox aşağıdır, ÜDM-in 6,1 faizini təşkil edir. Bu, ola bilsin, dünyada ən aşağı göstəricilərdən biridir. Biz, həmçinin maliyyə ehtiyatlarını yığırıq və hər il onları artırırıq ki, iqtisadiyyat sabit qalsın. S&P kimi aparıcı reytinq təşkilatları kredit reytinqimizi sərmayə və müsbət səviyyəsinə qaldırıb. Bu isə islahatların təzahürüdür. Biz demoqrafik baxımdan müsbət dinamikanı müşahidə edirik. Əhali artır, ola bilsin 10 il əvvəl olduğu kimi deyil. Lakin biz eyni mənzərəni regionun digər ölkələrində də görürük. Bununla belə, demoqrafik vəziyyət müsbətdir. Yoxsulluq səviyyəsi təxminən 5 faizdir. Düşünürəm ki, bu da yaxşı nəticədir. Görünür ki, iqtisadi inkişaf və sosial müdafiə Azərbaycanda yanyana gedir və bütün bunlar siyasi sabitliyi, proqnozlaşdırmanı, iqtisadi sabitliyi və imkanları əsaslandırır. Bir sözlə, bu gün biz əsas diqqəti qlobal tendensiyalarla ayaqlaşmaq, xüsusən də rəqəmsal transformasiyada olmaq, süni zəka, məlumat mərkəzləri sahələrində irəliyə doğru addım atmağa yönəldirik.

Bir çox işlər artıq görülüb. Bəlkə də bu görünmür və ya hələ ki, görünməli deyil, lakin çox hazırlıq işləri görülüb və ən böyük gözlədiyimiz nəticə Amerika şirkətləri ilə strateji tərəfdaş kimi işləməkdir, çünki onlar bu sahədə liderdir. Yeri gəlmişkən, Prezident Trampla imzaladığımız sənəddə və imzalanmasını planlaşdırdığımız Strateji Tərəfdaşlıq Xartiyasında süni intellekt və ona aid bütün məsələlər barədə xüsusi müddəa var. Əlbəttə, biz görülmüş və planlaşdırdığımız işlər barədə çox danışa bilərik. Lakin düşünürəm ki, siz və xüsusən də ilk dəfə səfər edənlər hər şeyi öz gözünüzlə görsəniz daha yaxşı olar.

Əlbəttə, hökumət rəsmiləri ilə, işgüzar dairələrlə görüşmək, ölkəni hiss etmək imkanınız olacaq. Nəhayət, mehmanxana işi ilə bağlı son söz söyləyim. Çox şadıq ki, "Marriott" Azərbaycanda nəinki paytaxtda, o cümlədən regionlarda öz fəaliyyətini genişləndirəcək. Ümid edirəm ki, regionlarda fəaliyyətiniz artacaq. Birləşmiş Ştatların digər mehmanxana şəbəkəsi və digər tərəflər də ölkədə var. Potensial hələ də böyükdür, çünki Azərbaycana səfər edən xarici vətəndaşların sayı ildən-ilə artır. Yalnız bir dövr var idi. COVID və ondan sonrakı dövrdə tənəzzül yaşandı. İndi isə həmin sahə bərpa olunub. Mehmanxanalarda tutum, həmçinin müvafiq səviyyədədir. Azərbaycanın dövri əsaslarla ev sahibliyi etdiyi böyük beynəlxalq tədbirlər, həmçinin əlavə turistlər cəlb edir. Bir sözlə, tövsiyəm odur ki, Bakıda və rayonlarda imkanları araşdırmaq lazımdır. Siz xizək mərkəzini qeyd etdiniz. Oranı inkişaf etdirmək üçün böyük planlar var. Bu gün o, idman üçün artıq geniş və çox rahat məkana çevrilib. Yeri gəlmişkən, biz martda orada ilk beynəlxalq tədbiri təşkil edəcəyik. Beləliklə, mehmanxana biznesinin Azərbaycanda böyük potensialı var. Ümid edirəm, Amerikanın mehmanxana sənayesinin bir çox digər şəbəkələri, filialları Azərbaycana gələcək və görəcək ki, bu, biznes və sərmayə üçün yaxşı məkandır".

# İkitərəfli münasibətlərimizin tarixində ilk nümunə...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 9-da ABŞ-ın Əsas Amerika Yəhudi Təşkilatlarının Prezidentləri Konfransının sədri Betsi Berns Kornun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Prezident İlham Əliyevlə ABŞ-ın Əsas Amerika Yəhudi Təşkilatlarının Prezidentləri Konfransının nümayəndələrinin əvvəlki görüşləri məmnunluqla xatırlandı.

Qəbula görə dövlətimizin başçısına minnətdarlığını bildirən Betsi Berns Korn Azərbaycanın strateji əhəmiyyətini, həmçinin ABŞ və İsraillə yaxşı əlaqələrini nəzərə alaraq əməkdaşlığın genişləndirilməsi baxımından məsələlərin müzakirəsi üçün böyük nümayəndə heyəti ilə ölkəmizə səfərə gəlməkdən məmnunluğunu ifadə etdi.



Betsi Berns Korn ötən ilin avqustunda Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması ilə bağlı Vaşinqtonda əldə edilmiş nailiyyətlər münasibətilə təbriklərini çatdırdı. O, bu məsələdə Azərbaycan Prezidentinin nümayiş etdirdiyi liderliyi və ABŞ Prezidentinin göstərdiyi səyləri xüsusi vurğuladı.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirərək, nailiyyətlərin əldə olunmasında ABŞ Prezidenti Donald Trampın roluna toxundu. Azərbaycan və Ermənistan tərəfinin artıq sülh şəraitində yaşamağa öyrəşdiklərini deyən Prezident İlham Əliyev bölgədə sülh və sabitliyin təmin edilməsinin regionun inkişafına mühüm töhfə verəcəyini vurğulayaraq, TRIPP və digər bağlantı layihələrinin regional əməkdaşlığın genişləndirilməsi baxımından önəmini qeyd etdi.

Donald Trampın hakimiyyətə gəlməsindən sonra Azərbaycan-ABŞ əlaqələrinin uğurla inkişaf etdiyini bildirən dövlətimizin başçısı son 6 ayda ABŞ Prezidenti ilə bir neçə dəfə görüşməsini ikitərəfli münasibətlərimizin tarixində ilk nümunə olduğunu dedi.

Görüşdə Azərbaycanda tarixən tolerant mühitin hökm sürdüyü qeyd edildi, digər xalqların nümayəndələrinə olduğu kimi yəhudilərə də göstərilən dövlət qayğısına toxunuldu.

Söhbət zamanı Azərbaycan-ABŞ əlaqələrinin inkişafından məmnunluq bildirildi, Əsas Amerika Yəhudi Təşkilatlarının Prezidentləri Konfransı ilə ölkəmiz arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd edildi, onların Azərbaycan-ABŞ və Azərbaycan-İsrail ikitərəfli münasibətlərinin genişlənməsində rolu vurğulandı.

# Strateji tərəfdaşlıqdan qlobal əməkdaşlığa

## Yeni mərhələdə Azərbaycan-ABŞ münasibətləri: təhlükəsizlik, enerji və sülh gündəliyi

Azərbaycan-ABŞ münasibətləri son illərdə keyfiyyətcə yeni mərhələyə qədəm qoyaraq regional və qlobal proseslərin mühüm komponentinə çevrilməkdədir. Xüsusilə Bakının Cənubi Qafqazda formalaşdırdığı yeni iqtisadi, siyasi və təhlükəsizlik reallıqları Vaşinqtonun bölgəyə baxışını əhəmiyyətli dərəcədə dəyişib. Əgər əvvəlki mərhələlərdə ABŞ-ın regiona münasibəti daha çox normativ və vasitəçi yanaşma üzərində qurulurdusa, hazırkı mərhələdə bu münasibətlər praqmatik, işgüzar və qarşılıqlı maraqlara əsaslanan əməkdaşlıq modelinə transformasiya olunmaqdadır.

Azərbaycanın müstəqil xarici siyasət kursu, regional liderlik statusu və xüsusilə postmünaqişə dövründə ortaya qoyduğu sülhpərvər, konstruktiv mövqe ABŞ üçün ölkəmizi Cənubi Qafqazda etibarlı tərəfdaş kimi ön plana çıxarıb. Bakı yalnız enerji ixracatçısı və tranzit ölkə kimi deyil, həm də regional təhlükəsizliyin təmin olunmasında, beynəlxalq sülh təşəbbüslərinin irəli aparılmasında mühüm aktor kimi qəbul edilir. Məhz bu reallıqlar fonunda Vaşinqtonun Azərbaycanla münasibətləri yeni məzmunla zənginləşir.

Bu kontekstdə ABŞ-ın vitse-prezidenti Cey Di Vensin və ABŞ Dövlət katibinin iqtisadi məsələlər üzrə müavini Ceykob Helberqin regiona, o cümlədən Bakıya planlaşdırılan səfərləri xüsusi əhəmiyyət daşıyır. Sözügedən səfərlər sadəcə diplomatik missiya kimi xarakterizə oluna bilməz - bu, Azərbaycan-ABŞ münasibətlərinin strateji səviyyədə yenidən formatlaşdırılmasının göstəricisi kimi dəyərləndirilməlidir. Bu proseslər tərəflər arasında uzunmüddətli və institusional əməkdaşlıq üçün möhkəm zəmin formalaşdırır və münasibətləri daha perspektivli, çoxşaxəli və dayanıqlı edir.

**Təhlükəsizlik sahəsində əməkdaşlıq: strateji tərəfdaşlığın dayaqları**

ABŞ-Azərbaycan münasibətlərinin əsas istiqamətlərindən biri təhlükəsizlik sahəsində əməkdaşlıqdır. Bu əməkdaşlıq tarixi baxımdan 2000-ci illərin əvvəllərinə, qlobal terrorizmə qarşı mübarizənin intensivləşdiyi dövrə təsadüf edir. Azərbaycan həmin mərhələdə ABŞ-ın yaxın strateji tərəfdaşı kimi çıxış edərək beynəlxalq antiterror koalisiyasında fəal iştirak etmiş, regionda sabitliyin qorunmasına mühüm töhfələr verib.

Azərbaycan Silahlı Qüvvələrinin sülhməramlı kontingentləri müxtəlif illərdə Əfqanıstan, İraq və digər münaqişə zonalarında beynəlxalq təhlükəsizlik missiyalarında iştirak edərək ölkəmizin qlobal təhlükəsizliyə verdiyi töhfəni nümayiş etdirib. Bu, Bakının yalnız regional deyil, həm də qlobal miqyasda məsuliyyətli aktor kimi çıxış etdiyini təsdiqləyir.

Azərbaycan - ABŞ münasibətlərinin mühüm istiqamətlərindən birini isə hərbi-siyasi və təhlükəsizlik sahəsində əməkdaşlıq təşkil edir. Buraya Təhdidlərin Birgə Azaldılması proqramı və ABŞ-ın İxraca Nəzarət və Sərhəd Təhlükəsizliyi proqramı, NATO çərçivəsində, eləcə də beynəlxalq terrorizmə qarşı mübarizədə birgə səylər, Azərbaycan sərhədlərinin, xüsusən də, dəniz sərhədlərinin möhkəmləndirilməsi, ABŞ-ın Avropada raketlərdən müdafiə sistemi və Avropada Adi Silahlı Qüvvələr Müqaviləsi sahəsində əməkdaşlıq və digər məsələlər daxildir.

Postmünaqişə dövründə isə Azərbaycan Cənubi Qafqazda yeni təhlükəsizlik arxitekturasının formalaşdırılmasında aparıcı rol oynamaqdadır. Regional əməkdaşlıq mexanizmlərinin təşviqi, sülh müqaviləsinin irəli aparılması istiqamətində atılan addımlar və beynəlxalq təşəbbüslərə qoşulma ABŞ üçün Azərbaycanın strateji əhəmiyyətini daha da artırır. Azərbaycanın Sülh Şurası Nizamnaməsini imzalayaraq təsisçi dövlətlərdən biri olması da qlobal sülh gündəliyinə sadiqliyinin göstəricisidir. Bu faktorlar ABŞ-Azərbaycan münasibətlərində təhlükəsizlik komponentinin yalnız keçmişin irsi deyil, gələcək əməkdaşlığın da əsas istiqamətlərindən biri olacağını deməyə əsas verir.

**Enerji təhlükəsizliyi: Bakı qlobal və regional sabitləşdirici faktor kimi...**

Azərbaycan-ABŞ münasibətlərində enerji təhlükəsizliyi xüsusi strateji əhəmiyyətə malikdir. Bakı artıq uzun illərdir ki, qlobal enerji bazarının etibarlı iştirakçısı kimi çıxış edir və bu statusunu yeni reallıqlar fonunda daha da möhkəmləndirir. Azərbaycanın enerji siyasəti təkcə iqtisadi gəlir mənbəyi deyil, həm də geosiyasi təsir aləti kimi formalaşıb.

Azərbaycanın yürütdüyü enerji siyasəti son 30 ildə nəinki regionun, daha böyük coğrafiyanın mənzərəsini və enerji xəritəsini dəyişib. Bakı-Tblisi - Ceyhan, Bakı-Tbilisi-Ərzurum enerji xətləri kimi qlobal layihələrin ərsəyə gəlməsi, bu layihələrin daha geniş əməkdaşlıqlara meydan açması, yeni mərhələlər formalaşdırması göz önündədir - bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyində əsaslı rol oynayır, Şimal-Cənub, Şərq - Qərb enerji tranzitinin mühüm logistik mərkəzlərindən sayılır. Azərbaycan ötən müddət ərzində enerji təhlükəsizliyi sahəsində etibarlı tərəfdaş kimi özünü təsdiqləyib: yeni neft-qaz strategiyasında enerji nəqli marşrutlarının şaxələndirilməsini əsas prioritetlərdən biri kimi müəyyənləşdirən ölkəmiz bu gün regional və qlobal enerji təhlükəsizliyinə mühüm töhfələr verir.

Hazırda Azərbaycan dünyanın 16 ölkəsini, o cümlədən, Avropa İttifaqının 10 üzv dövlətini təbii qazla təmin edir. Bu fakt Azərbaycanın Avropanın enerji təhlükəsizliyində mühüm rol oynadığını göstərir və ABŞ tərəfindən də yüksək qiymətləndirilir. Vaşinqton üçün Azərbaycanın enerji infrastrukturu digər ölkələrdən asılılığın azaldılması və alternativ mənbələrin gücləndirilməsi baxımından strateji əhəmiyyət daşıyır.

Qeyd edək ki, hər zaman müasir çağırışları nəzərə alan Azərbaycan bu gün yaşıl enerji ixracatını özünün ən mühüm prioritetlərindən birinə çevirib. Respublikamız dünyanın bir sıra dövlətləri üçün həm də yeni enerji mənbəyi kimi maraq kəsb edir. “Yaşıl enerji” həm də Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlığın yeni mərhələsi sayılır və tərəflərin strateji baxışlarını ifadə edir. Azərbaycan çox böyük “yaşıl enerji” potensialına malikdir. Bu, artıq təsdiq olunmuş faktdır. Ölkəmizdə bərpaolunan mənbələrdən enerji istehsalı üzrə layihələrin icrasına isə artıq start verilib. Əlamətdar haldır ki, xarici investorlar bu sahədə ilk böyük layihələrə sərmayələr yönəldirlər. Azərbaycanda istehsal olunacaq “yaşıl enerji” Avropaya Qara dənizin dibi ilə çəkiləcək marşrutla ötürüləcək. Yaşıl enerji dəhlizinin yaradılması isə Azərbaycanla Aİ arasında əməkdaşlıq imkanlarını daha da genişləndirəcək. Azərbaycanın bərpaolunan enerji sahəsində atdığı addımlar, “yaşıl enerji” layihələri və regional enerji dəhlizlərinin genişləndirilməsi ABŞ-Azərbaycan əməkdaşlığının yeni mərhələyə keçdiyini göstərir. Enerji sahəsində tərəfdaşlıq artıq yalnız neft və qazla məhdudlaşmır, texnoloji əməkdaşlıq və investisiya layihələri ilə zənginləşir.

**Yeni siyasi mərhələ: Tramp amili və institusional dialoq...**

ABŞ-Azərbaycan münasibətlərinin yeni mərhələyə qədəm qoymasında Donald Tramp amilinin xüsusi yeri var. Məhz Trampın ikinci dəfə hakimiyyətə qayıdışından sonra Bakı-Vaşinqton xəttində dialoq intensivləşib, qarşılıqlı etimad mühiti güclənib. Bu mərhələdə münasibətlər şəxsi diplomatiya ilə yanaşı, institusional əsaslar üzərində qurulmağa başlayıb. 2025-ci ilin 8 avqustunda keçirilən görüşlər, imzalanan sənədlər və xüsusilə Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Anlaşma Memorandumu münasibətlərin yeni səviyyəyə keçdiyini göstərir. Bu sənəd Bakı-Vaşinqton əlaqələrinin sistemli və uzunmüddətli inkişafı üçün mühüm hüquqi və siyasi baza formalaşdırır.

Paralel olaraq Trampın Cənubi Qafqazda sülhün və sabitliyin təmin olunmasına verdiyi töhfə olduqca böyükdür. Ermənistan ilə Azərbacyan arasında sülh sazişi layihəsinin məhz Vaşinqtonda paraflanması prosesini beynəlxalq səviyyədə təsdiqinə çevrildi. Bu isə yeni nizamda yeni siyasi münasibətlərin formalaşmasında əhəmiyyətli rol oynadı.

Vurğulanmalıdır ki, dövlət başçıları arasındakı münasibətlər də yüksək səviyyədədir. Prezident İlham Əliyev ilə Prezdient Donald Tramp arasında Misirdə, Davosda keçirilən görüşlər, qarşılıqlı telefon zəngləri və məktub mübadilələri də bu münasibətlərin yeni ştrixlərini ortaya qoyur. Burada artıq epizodik əlaqələrdən deyil, strateji tərəfdaşlıq konsepsiyasından söhbət gedir.

**Vitse-prezidentin səfəri: regional sabitlik, iqtisadi əməkdaşlıq, inteqrasiya**

ABŞ vitse-prezidenti Cey Di Vensin Azərbaycana planlaşdırılan səfəri isə Azərbaycan-ABŞ münasibətlərinin dinamik inkişafının bariz göstəricisidir. Bu səfər yalnız ikitərəfli əlaqələrin möhkəmləndirilməsi deyil, həm də Cənubi Qafqazda sülh və sabitliyin bərqərar olunması baxımından mühüm siyasi mesaj daşıyır.

Vaşinqtonun yüksək səviyyədə Bakıya diqqət göstərməsi Azərbaycanın regionda aparıcı siyasi aktor kimi qəbul edildiyini təsdiqləyir. Səfər çərçivəsində müzakirə olunacaq məsələlər təhlükəsizlik, enerji, iqtisadi əməkdaşlıq və regional inteqrasiya kimi strateji sahələri əhatə edəcək. Vurğulanmalıdır ki, Azərbaycanın yürütdüyü rasional siyasət kursu müxtəlif qütblər arasında körpü rolunu oynamaq imkanını formalaşdırıb. Qərb ilə Şərq, Şimal ilə Cənub arasında etibarlı dialoq platforması kimi çıxış edən Bakı fərqli maraqların toqquşduğu məkanda uzlaşma mühiti yaradır. Bu, xüsusilə enerji, nəqliyyat, təhlükəsizlik və humanitar əməkdaşlıq sahələrində özünü qabarıq şəkildə göstərir. Orta Dəhliz layihəsi bu baxımdan yalnız iqtisadi deyil, həm də geosiyasi məzmun daşıyır və Azərbaycanın yeni qlobal nizamda oynadığı rolun əsas sütunlarından birinə çevrilib.

Eyni zamanda, Azərbaycanın təşəbbüsü ilə formalaşan regional əməkdaşlıq formatları və çoxtərəfli platformalar qlobal sistemdə humanizm, qarşılıqlı hörmət və suverenliyə əsaslanan yeni münasibətlər modelini təşviq edir. Rəsmi Bakı mövcud imkanları yalnız milli maraqlar kontekstində deyil, həm də regional rifah və sabitlik prizmasından dəyərləndirir. Bu yanaşma Azərbaycanın beynəlxalq nüfuzunu artırmaqla yanaşı, onu qlobal əlaqələr sistemində etibarlı və məsuliyyətli tərəfdaş kimi möhkəmləndirir.



**Cənubi Qafqaz üçün inkişaf “resepti”: iqtisadi diplomatiya və TRIPP təşəbbüsü...**

ABŞ Dövlət katibinin iqtisadi məsələlər üzrə müavini Ceykob Helberqin vitse-prezident Vensə qoşularaq Bakıya səfər etməsi iqtisadi diplomatiyanın ön plana çəkildiyini göstərir. ABŞ Dövlət Departamentinin açıqlamasında vurğulandığı kimi, bu səfər Prezident Trampın sülh səylərinin irəli aparılmasına və Tramp Beynəlxalq Sülh və Rifah Marşrutunun (TRIPP) təşviqinə xidmət edəcək. Yeni reallıqlar fonunda Cənubi Qafqaz artıq qapalı geosiyasi məkan deyil, Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən strateji qovşaq kimi çıxış edəcək. Azərbaycanın təşəbbüskarı olduğu nəqliyyat və enerji layihələri regionun iqtisadi xəritəsini yenidən formalaşdırır, ölkəmizin rolunu əsas aparıcı qüvvə kimi möhkəmləndirir. Müharibədən sonra bu dəhlizin açılması istiqamətində aparılan ardıcıl siyasi xətt artıq konkret nəticələr verməkdədir. Ötən ilin avqustunda Vaşinqtonda siyasi təsdiqini əldə edən Zəngəzur dəhlizi (TRIPP) təşəbbüsü yeni dövrdə Cənubi Qafqaz üçün tamamilə fərqli inkişaf perspektivləri vəd edir. Bu layihə regionun tranzit imkanlarını genişləndirir, iqtisadi inteqrasiyanı sürətləndirir və uzunmüddətli sabitliyin əsas dayaqlarından birinə çevrilir. Azərbaycanın yaratdığı yeni reallıqlar isə bir daha göstərir ki, ölkəmizin apardığı siyasət yalnız milli maraqlara deyil, bütövlükdə, regionun inkişafına xidmət edir. Azərbaycan bu marşrutun əsas mərkəzlərindən biri kimi çıxış edərək regionun iqtisadi xəritəsini yenidən formalaşdırmaq potensialına malikdir.

**Yeni konturlar: Bakı-Vaşinqton münasibətləri dayanıqlı və işgüzar səviyyə qazanıb**

Ümumilikdə, Azərbaycan-ABŞ münasibətləri yeni mərhələdə daha dərin, çoxşaxəli və institusional xarakter alır. Təhlükəsizlik, enerji, iqtisadiyyat və diplomatiya sahələrində əməkdaşlıq tərəflər arasında strateji tərəfdaşlığın möhkəm əsaslar üzərində qurulduğunu göstərir. ABŞ-ın yüksək səviyyəli rəsmilərinin Bakıya səfərləri bu münasibətlərin təsadüfi deyil, uzunmüddətli strateji maraqlara söykəndiyini təsdiqləyir. Bu həm də onu deməyə əsas verir ki, dünyanın fövqəlgüc ölkəsi sayılan ABŞ ilə Azərbaycan arasındakı münasibətlər artıq fərqli koturlarla inkişaf edir - indiki dövrdə yaranan mühüm perspektivlər də göz önündədir. Belə ki:

- Azərbaycanın apardığı siyasət ABŞ-ın ölkəmizə olan diqqətinin artmasında əhəmiyyətli rol oynayır;
- ABŞ qlobal səviyyədə təhlükəsizlik, terrorizmlə mübarizə kimi məsələlərdə ardıcıl siyasət yürüdür və Azərbaycan hər zaman rəsmi Vaşinqtonun vacib tərəfdaşı qismində çıxış edib;
- Enerji və iqtisadi mövzularda, qaçaqmalçılıqla, kibercinayətkarlıqla, iqtisadi cinayətkarlıqla mübarizədə iki dövlət hər zaman eyni mövqedən çıxış edir;
- Regionda sülhün formalaşması yeni iqtisadi mühitin formalaşmasına yol açacaq ki, ABŞ bu əməkdaşlıq mühitində real oyunçulardan birinə çevrilib.

Azərbaycanın regional liderlik mövqeyi, müstəqil xarici siyasəti və qlobal təşəbbüslərdə fəal iştirakı Vaşinqton üçün ölkəmizi əvəzolunmaz tərəfdaş kimi önə çıxarır. Qarşıdakı dövrdə Bakı-Vaşinqton xəttində əməkdaşlığın daha da dərinləşəcəyi və bu münasibətlərin Cənubi Qafqazda sülh, sabitlik və rifahın təmin olunmasına mühüm töhfə verəcəyi gözlənilir.

*Pərviz SADAYOĞLU*

# Sizdən dəstək istəyirik...

## Azərbaycan vətəndaş cəmiyyətinin nümayəndələri ABŞ-ın Vitse-prezidenti Cey Di Vensə açıq məktub ünvanlayıblar

Azərbaycan vətəndaş cəmiyyətinin nümayəndələri Amerika Birləşmiş Ştatlarının Vitse-prezidenti Cey Di Vensə açıq məktub ünvanlayıblar.

AZƏRTAC məktubun tam mətnini təqdim edir:

“Hörmətli cənab Vitse-prezident,

Əsrlər boyu sivilizasiyalar arasında körpü rolunu oynayan bir xalqın nümayəndələri olaraq Sizə məktub yazırıq. Bura azan səsinin və kilsə zənglərinin əsl birgəyaşayış ruhunda ahəngdar şəkildə bir-birinə qarışdığı diyardır. Azərbaycan istənilən sabit cəmiyyətin təməlini təşkil edən mənəvi və ənənəvi dəyərlərə - ailənin müqəddəsliyinə, irsin mühafizəsinə və dini azadlığın qorunmasına sadiqdir.

ABŞ-ın hazırkı administrasiyasının din azadlığına və dinlərarası dialoqa güclü sadiqliyini nəzərə alaraq, biz Azərbaycanın davamlı irsini dinlərarası harmoniya və tolerantlıq nümunəsi kimi qürurla vurğulayırıq.

Ölkəmizin xristian dünyası ilə münasibətləri təkcə diplomatik deyil, həm də dərin mədəni xarakter daşıyır. Azərbaycan tarixən müxtəlif dini irsin qorunmasına, o cümlədən Vatikanda xristian kilsələrinin və müqəddəs yerlərin genişmiqyaslı təmirinə sərmayə qoyub. Müqəddəs Taxt-tacla möhkəmlənən əlaqələrimizdən və ərazimizdə müxtəlif xristian məzhəblərinin artan mövcudluğundan son dərəcə qürur duyuruq. Azərbaycan çiçəklənən katolik icmasından tutmuş bu yaxınlarda Bakıda İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin təsis edilməsinə qədər dinlərin çiçəklənməsi üçün şərait yaratmağa davam edir. Paytaxtımızda ikinci Katolik kilsəsinin inşasının davam etdirilməsi bizim bu məsələyə sadiqliyimizi bir daha sübut edir ki, bu da cəmiyyətin öz dini müxtəlifliyi ilə gücləndiyinə inamımızın göstəricisidir.

Lakin hazırkı sülhə qədər keçdiyimiz yol dərin itkilərlə yadda qalıb. Biz 1987-ci ildən bəri Ermənistandakı dədə-baba torpaqlarından zorla çıxarılan Qərbi azərbaycanlıların üzləşdiyi tarixi ədalətsizliyi xatırlamalıyıq.

Yüzlərlə kənd viran qoyulmuş, evlər talanmış, İrəvandakı tarixi Göy Məscid də daxil olmaqla müqəddəs yerlər təhqir edilmiş və ya tarixi izləri silinmişdir.

Onilliklər ərzində Azərbaycan cəmiyyətinə inteqrasiya olmasına baxmayaraq, əcdadlarımızın məzarlarını ziyarət etmək və dağıdılmış evləri bərpa etmək arzusu xalqımızda dinc və humanitar bir ürək döyüntüsü olaraq qalır.

Qərbi azərbaycanlılar heç bir ərazi iddiası irəli sürmürlər. Onların məqsədi Ermənistanın suverenliyini təhdid etmək deyil, sülh və ləyaqət şəraitində öz yurd yerlərinə qayıtmaq kimi fundamental insan hüququnu həyata keçirməkdir. Biz tarixi bir yol ayrıcındayıq. 2025-ci il avqustun 8-də Vaşinqtonda imzalanmış Birgə Bəyannamə ümid işığı rolunu oynayır. Biz onilliklər boyu davam edən fikir ayrılıqlarını Prezident İlham Əliyevin və ABŞ Prezidenti Donald Trampın ticarət, təhlükəsizlik və qarşılıqlı hörmətlə müəyyənləşdirilmiş gələcəklə əvəzləmək barədə ortaq baxışlarını tam şəkildə dəstəkləyirik.

Cənab Vitse-prezident, biz 1990-cı illərin əvvəllərində Ermənistan Respublikasından qovulmuş azərbaycanlıların qayıtmaq hüququnun müdafiəsi və mədəni irsinin qorunması üçün Sizdən dəstək istəyirik.

Qərbi Azərbaycanlıların tarixi yurdlarına dinc yolla qayıtmalarına və Ermənistanda Azərbaycan xalqına məxsus dağıdılmış dini və mədəni irs yerlərinin bərpasına dəstəyiniz düzgün istiqamətdə atılmış mühüm bir addım ola bilər.

Bundan əlavə, biz inanırıq ki, əcdadlarının Ermənistandakı torpaqlarından zorla qovulmuş azərbaycanlıların geri qayıtmaq hüququ məsələsi real və hərtərəfli sülh yolu ilə həll olunmalıdır. Qərbi Azərbaycan İcması dinc qayıdışla bağlı konstruktiv dialoq çağırışı etsə də, bu çağırışlar cavabsız qalmışdır. Ədalətli və davamlı sülh bu icmanın öz doğma evlərinə sülh və təhlükəsiz şəraitdə qayıtmasını əhatə etməlidir.

Sizin liderliyiniz və mənəvi dürüstlüyünüz “2025-ci il sülhü”nün Qafqazdakı hər bir ailə üçün daimi gerçəkliyə çevrilməsini təmin edə bilər.

Hörmət və ehtiramla,

Azərbaycan vətəndaş cəmiyyətinin nümayəndələri

1. Ramil İskəndərli - Azərbaycan Milli QHT Forumunun İdarə Heyətinin sədri
2. Oğuz Məmmədov - “Zəngi - Tarixi İrsin Öyrənilməsi” İctimai Birliyinin sədri
3. Fuad Məmmədov - “Simurq” Azərbaycan Mədəniyyət Assosiasiyasının Rəyasət Heyətinin sədri
4. Xatirə Vəliyeva - Azərbaycan Milli QHT Forumunun İdarə Heyətinin üzvü
5. Rizvan Nəbiyev - “Hüquqi Təhlil və Araşdırmalar” İctimai Birliyinin İdarə Heyətinin üzvü
6. Tənzilə Rüstəmxanlı - “Azəri-Türk Qadınlar Birliyi”nin sədri
7. Novella Cəfərova - “D.Əliyeva adına Azərbaycan Qadın Hüquqlarının Cəmiyyətinin Müdafiə Cəmiyyəti” İctimai Birliyinin sədri
8. Səadət Bənənyarlı - “Beynəlxalq İnsan Hüquqları Cəmiyyətinin Azərbaycan Milli Bölməsi” İctimai Birliyinin sədri
9. Səltənət Qocamanlı - “İnsan Hüquqlarının və Qanunçuluğun Müdafiəsi” İctimai Birliyinin sədri
10. Sevinc Əlizadə - “Zəfər” Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri
11. Əmir Əliyev - “İnsan Hüquqlarının Təşviqi Mərkəzi” İctimai Birliyinin sədri
12. Əliməmməd Nuriyev - Konstitusiya Araşdırmalar Fondunun rəhbəri
13. Zaur Məmmədov - “Bakı Politoloqlar Klubu” İctimai Birliyinin sədri
14. Rey Qasımov - “Azərbaycanda Minadan Zərərçəkənlərin Assosiasiyası” İctimai Birliyinin sədri
15. Hafiz Səfixanov - “Minalar Əleyhinə Azərbaycan Kampaniyası” İctimai Birliyinin sədri
16. Zaur İbrahimli - “Prioritet” Sosial İqtisadi Araşdırmalar Mərkəzi İctimai Birliyinin sədri
17. Xətai Ələsgərov - “Dədə Ələsgər Ocağı” İctimai Birliyinin sədri
18. Könül Behbudova - “Qarabağ İtkin Ailələri” İctimai Birliyinin sədri
19. Ayaz Mirzəyev - “Azərbaycan Jurnalistlər Şəbəkəsi” İctimai Birliyinin sədri
20. Dilqəm Əhməd - “Çapar” Milli İrsin Tədqiqi Mərkəzi İctimai Birliyinin sədri
21. Hacı Abdulla - “Zəngəzur” Cəmiyyətləri İctimai Birliyinin sədri
22. Fariz Xəlilli - “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin sədri
23. Umud Rəhimoğlu - “Beynəlxalq Avrasiya Mətbuat Fondu”nun sədri
24. Mübariz Əsgərov - “Obyektiv” Milli Dəyərlərin Təbliğinə Dəstək İctimai Birliyinin sədri
25. Şəhla Nağıyeva - “Sönməz Məşəl” Mədəni Əlaqələr İctimai Birliyinin sədri
26. Tünzalə Abdullalimova - “Vətən Naminə” Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri
27. Ceyran Həsənova - “Şəhid Analarına Dəstək” İctimai Birliyinin sədri
28. Aqil Camal - “Ortaq Dəyərlər” İctimai Birliyinin sədri
29. Vüqar Qədirov - “Qayıdış və Dirçəliş Naminə Gənclər Təşkilatı” İctimai Birliyinin sədri
30. Xalid Kazımov - “Regional İnsan Hüquqları və Media Mərkəzi” İctimai Birliyinin sədri
31. Əhməd Abbasbəyli - “Cəmiyyətin İnkişafı Mərkəzi” İctimai Birliyinin sədri
32. İradə Rzazadə - “Vətəndaşların Sosial Rifahı Naminə” İctimai Birliyinin sədri
33. Kəramət İsmayılov -”İqtisadi və Sosial İnkişaf Mərkəzi” İctimai Birliyinin sədri



34. Fikrət Yusifov - “Ekonomiks” Beynəlxalq İqtisadi Araşdırmalar İctimai Birliyinin sədri
35. Şəlalə Həsənova - “İctimaiyyətlə əlaqələrin inkişafına dəstək” İctimai Birliyinin sədri
36. Zərifə Quliyeva - “Modern İnkişaf və Ailə” İctimai Birliyinin sədri
37. Məhluqə Rəhimova - “Əlil Qadınlar Cəmiyyəti” İctimai Birliyinin sədri
38. Vüsalə Hüseynova - İslahatçı qadınlar və innovasiyalar İctimai Birliyinin sədri
39. İlqar Hüseynli - Sosial-strateji tədqiqatlar və analitik araşdırmalar İctimai Birliyinin sədri
40. Varis Yolçiyev - Azərbaycan Ədəbiyyat Fondunun Baş direktoru
41. Səməd Vəkilov - “Müvəkkil Hüquq Mərkəzi” İctimai Birliyinin sədri
42. Cəsarət Hüseynzadə - “İnformasiya və Sosial Təşəbbüslərə Dəstək” İctimai Birliyinin sədri
43. Elşad Eyvazov - Tərəfsiz Jurnalistlər İctimai Birliyinin sədri
44. Fəridə Mirişova- “İz” Mədəniyyətin İnkişafına Dəstək İctimai Birliyinin sədri
45. Lalə Sərdarlı - “Tətbiqi Sənət Nümunələrinin Qorunmasına və Təbliğinə Yardım” İctimai Birliyinin sədri”.

# Şərqdə daha bir ilkə imza atılan gün...

## 10 fevral 1998-ci il tarixində Azərbaycanda ölüm hökmü ləğv edilib

İnsan cinayət törədibsə, mütləq qaydada onun cəzasını da çəkməlidir. Ancaq, eyni zamanda, hər bir insanın yaşamaq hüququ var. Tarixin bu günündə - 10 fevral 1998-ci ildə Milli Məclisdə ölüm hökmünün ləğvi ilə bağlı müvafiq qanun layihəsinin dəstəklənməsi Azərbaycanda insan hüquq və azadlıqlarının qorunmasına necə böyük önəm verildiyini əyani şəkildə təsdiqləyir. Artıq 28 ildir ki, respublikamızın məhkəmələrində heç bir məhkum barəsində ölüm hökmü çıxarılmır...



### Heydər Əliyevin cəza siyasətinə ədalətli və humanist yanaşmasının ifadəsi

Hazırda dünya üzrə aralarında inkişaf etmiş ölkələr də olmaqla 30-dək dövlətdə ölüm hökmü qüvvədə saxlanılır. Azərbaycanın adı isə Şərqdə ölüm hökmünü ləğv edən dövlət kimi tarixə düşüb.

Respublikamızda ölüm hökmünün ləğvi təşəbbüsü ilə ilk dəfə ulu öndər Heydər Əliyev çıxış edib. Sabiq Prezident Heydər Əliyev 1998-ci il fevralın 3-də ölüm hökmünün ləğv olunması haqqında təşəbbüslə Milli Məclisə müraciət ünvanlayıb. O, həmçinin Konstitusiyanın 96-cı maddəsinə uyğun olaraq ölkədə ölüm hökmünün ləğv olunması ilə əlaqədar Azərbaycan Respublikasının cinayət, cinayət-prosessual və islah-əmək məcəllələrinə dəyişikliklər və əlavələr edilməsi haqqında qanun layihəsini parlamentə təqdim edib. Bəhs olunan müraciətdə oxuyuruq: "Şərq aləmində ilk dəfə olaraq Azərbaycanda ölüm cəzasının ləğvi ölkəmizin dünyəvi, demokratik, hüquqi dövlət quruculuğu yolu ilə inamla irəlilədiyini bir daha sübut edir. Son günlər mənə ünvanlanmış minlərlə müraciət göstərir ki, xalqımız bu təşəbbüsü yekdilliklə dəstəkləyir. Şübhə etmirəm ki, Azərbaycan Respublikası Milli Məclisinin deputatları da indiki və gələcək nəsillər qarşısında öz məsuliyyətlərini dərk edərək bəyanata tərəfdar çıxacaq və bu amansız cəzanın ləğv edilməsinə səs verəcəklər. Əminəm ki, ölüm cəzasının ləğvi tarixi hadisə olmaqla bərabər cinayət-hüquq siyasətinin humanistləşdirilməsi sahəsində atılan qətiyyətli addımdır və bütünlükdə hüquq sistemində həyata keçirilən islahatların mühüm mərhələsidir".

Ölkədə ölüm hökmünün ləğv edilməsi təşəbbüsü ilə çıxış etməsi Ulu Öndərin cəza siyasətinə ədalətli və humanist yanaşmasını ifadə edirdi. Heydər Əliyev 1993-cü ilin yayında xalqın təkidli tələbi ilə ikinci dəfə Azərbaycanın siyasi rəhbərliyinə gəldikdən sonra respublikamızda ölüm hökmünün icrasına moratorium qoyuldu. Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq 1995-ci ildə ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilmiş Konstitusiyada ölüm hökmü cəzası tam ləğv edilənədək yalnız dövlətə, insan həyatına və sağlamlığına qarşı xüsusilə ağır cinayətə görə müstəsna cəza tədbiri kimi göstərilmiş və daimi cəza növü kimi nəzərdə tutulmamışdır. Demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunun hüquqi əsasları və insan hüquq və azadlıqlarının qeyd-şərtsiz təmin olunması da Əsas Qanunumuzda öz əksini tapıb. Heydər Əliyev 1995-ci ildə ölkəmizdə amnistiya institutunu da təsis edib. Azərbaycan Respublikası Prezidenti yanında Əfv Komissiyası yaradılıb. Cəmiyyətin ən müxtəlif təbəqələrini əhatə edən əfv sərəncamlarının və amnistiya haqqında fərmanların verilməsi qısa zamanda cəmiyyətdə yararlı, qanunların aliliyi prinsipini tərəddüdsüz qəbul edən vətəndaşların reabilitasiyasına fundamental töhfələr verib. 1996-cı ilin mayında isə Milli Məclis Azərbaycan Prezidentinin qanunvericilik təşəbbüsünü dəstəkləyərək yaşı 65-dən çox olanların ölüm cəzasından azad olunması ilə bağlı qərar qəbul edib, həmçinin ölüm cəzasının ləğvini nəzərdə tutan cinayətlərin sayı qanunvericilikdə 33-dən 12-yə endirilib.

Bütövlükdə, 1995-2003-cü illərdə respublikamızda Ulu Öndərin siyasi iradəsi əsasında 7 amnistiya aktı və 32 əfv Fərmanı imzalanıb. Bu amnistiya aktları 77 mindən çox insana şamil edilib. Bunlardan 21325 nəfəri cəzasının çəkilməmiş hissəsindən azad olunub. Əfv fərmanları ilə 3 mindən artıq şəxs bağışlanaraq cəzadan azad edilib.

### AXC-Müsavat iqtidarının 1 illik hakimiyyəti dövründə icra olunan 8 ölüm hökmü

Respublikamızda 1988-ci ildə ölüm cəzasına məhkum olunmuş 5, 1989-cu ildə 6, 1990-cı ildə 3 şəxs barəsində ölüm hökmləri icra edilib. Əlamətdar haldır ki, müstəqilliyimizin ilk illərində respublikamızda ölüm hökmləri icra olunmayıb. Müstəqil Azərbaycanda ölüm hökmünün üç illik fasilədən sonra bərpası AXC-Müsavat iqtidarının "xidməti"dir. Belə ki, 1993-cü ilin əvvəlində 8 nəfər barəsində ölüm hökmləri tələsik icra edilib. Ulu Öndərin bəhs olunan müraciətində vurğulandığı kimi, 1992-ci ildə müstəqillik və demokratiya şüarları ilə hakimiyyətə gələn AXC-Müsavat liderləri totalitar rejimlərə xas olan antihumanist, qeyri-insani qanunların icrasını davam etdirirdilər. Bununla da onlar əhalidə qorxu, vahimə hissi, müstəqil dövlətin gələcəyinə inamsızlıq əhval-ruhiyyəsi yaratmağa can atırdılar. Müstəqilliyin qorunması, ərazi bütövlüyünün bərpası, dövlət təhlükəsizliyinin təmin edüməsi və ordu quruculuğu üçün təxirəsalınmaz tədbirlərin görülməsi zəruri olduğu halda ölüm hökmlərinin icrası vacib ümumdövlət tədbiri kimi ortaya atılmışdı. Prezident səlahiyyətlərini cəmi bir aya yaxın müddətdə həyata keçirmiş Ali Sovetinin sədri İsa Qəmbərov 1992-ci il iyunun 16-da 7 nəfərin bağışlanma haqqında vəsatətlərini, əslində, buna səlahiyyəti olmadığı halda, rədd etmiş və bu barədə müvafiq fərmanlar imzalamışdır. Sabiq prezident Əbülfəz Əliyev isə 1993-cü il yanvarın 5-də ölüm cəzasına məhkum olunmuş 2 şəxsin vəsatətlərinin rədd edilməsinə dair fərman imzalayıb. Bundan sonra Əbülfəz Əliyev həmin şəxslərdən birinin barəsində hökmün qanuniliyinin yoxlanılmasını Azərbaycan Respublikasının prokurorluğuna tapşırmış, lakin yoxlama başa çatdırılmadan ölüm hökmü icra edilmişdir. İnsan həyatına belə laqeyd münasibət vaxtilə cəmiyyətimizdə hökm sürən hərc-mərcliyin və özbaşınalığın nəticəsi idi.

1998-ci il 10 fevral tarixinədək respublikamızda 128 məhkum barələrində çıxardılmış ölüm hökmünün icra olunmasını gözləyirdi. Ölüm cəzası Bayıl həbsxanasında güllələnmə ilə icra olunurdu. Gözləri bağlı məhkumun ürəyinə vurulan bir güllə onu həyatdan, yaşamaq hüququndan məhrum edirdi. Qeyd etdiyimiz kimi, Ulu Öndər respublikanın siyasi hakimiyyətinə qayıtdıqdan az sonra ölüm hökmlərinin icrasına moratorium qoydu. Bununla da hətta Vətən və xalq qarşısında ən ağır cinayətlər törədən, o zamankı hakimiyyətsizlikdən istifadə edib torpaqlarımızı düşmənə təslim etdirən Rəhim Qazıyev, ölkəmizi parçalamaq niyyətində olan separatçı Əlekram Hümbətov, təxribat və terror aktları törədən Elçin Əmiraslanov, dövlət çevrilişi cəhdlərinin təşkilatçıları Surət Hüseynovun, Cavadov qardaşlarının əlaltıları və qanunsuz silahlı dəstələrin azğınlaşmış üzvləri, Tarix Quliyev, eləcə də bu kimi digər qatillər, təhlükəli canilər barəsində ölüm hökmləri icra olunmadı.

*Mübariz FEYİZLİ*

# 198 il əvvəl...

## Türkmənçay müqaviləsi ilə təsdiqlənən tarixi ədalətsizlik

**Məkrli niyyətlər güdən yadların imzaladıqları iki müqavilə coğrafi məkan olaraq Azərbaycanın və xalqımızın həyatını dəyişib - bütöv olanı amansızcasına parçalayaraq iki yerə bölüb. Onlardan biri Gülüstan, digəri isə tarixin bu günündə - 10 fevral 1828-ci ildə imzalanan Türkmənçay müqaviləsidir. Artıq bədnam Türkmənçay müqaviləsinin imzalandığı tarixdən bizi 198 il ayırır.**

### Azərbaycan torpaqlarının istilasının birinci mərhələsi

Azərbaycanın ərazisində zaman-zaman müxtəlif dövlət quruluşları mövcud olub. Torpaqlarımızın istilası əsasən xanlıqlar dövrünə təsadüf edib. Bu da onunla bağlı olub ki, xanlıqlar bir-biri ilə ədavət aparıblar, xarici müdaxilələr zamanı birləşməyiblər.

Azərbaycanda xanlıqlar Nadir şah Əfşarın 1747-ci ildə sui-qəsd nəticəsində öldürülməsindən sonra - XVIII əsrin ikinci yarısından etibarən yaranıb. XV-XVI əsrlərdə bütöv Azərbaycanın ümumi ərazisi 410 min kvadratkilometrə bərabər idi. Xanlıqlar dövründə bu ərazilər 20-dək feodal dövlət arasında bölüşdürülmüşdü. Rusiya istilalarından əvvəl Azərbaycan xanları - Quba xanı Fətəli xan, Şəki xanı Çələbi xan, urmiyalı Fətəli xan Əfşar, Qarabağ xanı Pənahəli xan və başqaları ayrı-ayrılıqda Azərbaycanı birləşdirmək üçün cəhdlər etsələr də, bir nəticə hasil olmayıb. Çar Rusiyası Azərbaycan xanlıqlarını işğal edənə qədər Sibir xanlığını, Baltikyanı əraziləri, Qara dənizin sahillərini işğal edib böyük bir imperiya yaratmışdı. Artıq bu imperiyanın niyyəti Qafqazı ələ keçirmək və ordan isti dənizlərə doğru irəliləmək idi. Əlverişli coğrafi mövqeyi ilə fərqlənən Azərbaycan da çar Rusiyasının işğal planlarına daxil idi. Torpaqlarımızın işğalının birinci mərhələsi 1813-cü il oktyabrın 12-də imzalanan Gülüstan müqaviləsi ilə reallaşıb.

Gülüstan müqaviləsi - Rusiya imperiyası ilə Qacarlar dövləti arasında 1804-1813 illər müharibəsinin yekunlarını və Azərbaycanın həmin dövlətlər arasında birinci dəfə bölüşdürülməsini təsdiq edən sənəddir. Gülüstan müqaviləsinə əsasən, Şimali Azərbaycan (İrəvan və Naxçıvan xanlıqları istisna olmaqla) Rusiyanın, Cənubi Azərbaycan isə İranın tərkibinə qatılıb.

Müqavilənin mətni Böyük Britaniyanın Qacar imperiyasındakı nümayəndəsi sayılan və hakimiyyətə böyük təsir gücünə malik olan Ser Qor Ousli tərəfindən hazırlanıb. Müqaviləni Rusiya tərəfindən Nikolay Rtişev, Qacarlar tərəfindən isə Mirzə Əbülhəsən xan Elçi imzalayıblar. Azərbaycan ərazilərinin iki imperiya arasında bölünməsi müqavilənin 3-cü bəndi ilə təsbit olunub. Gülüstan müqaviləsinə əsasən, yalnız Rusiyaya Xəzər dənizində hərbi donanma saxlamaq hüququ verilir (maddə 5), ticarət malları üçün beş faizlik gömrük qoyulur, hər iki dövlətin tacirləri daxili gömrük vergilərindən azad olunublar (maddə 8-10).

Qeyd etdiyimiz kimi, Gülüstan müqaviləsi iki imperiya arasında çoxillik müharibənin nəticəsi olaraq imzalanıb. XVIII əsrdən başlayaraq Rusiyanın Qara dəniz və Xəzər sahillərindəki torpaqlara doğru irəliləməsi Qafqazda vəziyyəti xeyli mürəkkəbləşdirdi. 1801-ci il sentyabrın 12-də Şərqi Gürcüstanın Rusiyaya birləşdirilməsi haqqında çar manifestindən sonra bütün Cənubi Qafqazı ələ keçirmək üçün perspektiv yaranmışdı. Beləliklə, 1803-cü ildə Car-Balakən, 1804-cü ildə Gəncə inadlı müqavimətdən sonra Rusiya tərəfindən işğal olunub.

Rusiya imperiyasının Qafqazda işğalçı fəaliyyəti Qacarları ciddi şəkildə narahat edirdi. 1804-cü ilin mayında Azərbaycana bütövlükdə yiyələnməyə çalışan İran rus qoşunlarının Cənubi Qafqazdan çıxarılması tələbini irəli sürüb. Rusiya bu tələbi rədd edib və iki dövlət arasında diplomatik münasibətlər kəsilib. Rusiyanın Cənubi Qafqazda genişlənən istilalarının qarşısını almaq üçün Fətəli şahın vəliəhdi Abbas Mirzə Rusiyaya qarşı 1805-ci ilin yazında hərbi əməliyyatlara başlayıb.

Bundan sonra Azərbaycan xanlıqlarının öz müstəqilliklərini itirmələri prosesi sürətlənib. 1805-ci il mayın 14-də Qarabağ xanlığı, mayın 21-də isə Şəki xanlığı Rusiya ilə müqavilələr imzalayıblar. Lakin bu müqavilələr dövlətlərarası münasibətləri müəyyən edilmiş şərtlər əsasında, hüquqi yolla nizama sala bilmədi. Çünki Rusiya üzərinə götürdüyü öhdəlikləri sonadək yerinə yetirmədi. Qarabağ xanı İbrahim xan 1806-cı ildə Rusiya işğalçıları tərəfindən xaincəsinə qətlə yetirildi və 1822-ci ildə xanlıq ləğv edildi.

Şimali Azərbaycanın ən böyük xanlığının - Şirvanın Rusiyaya qatılması (1805) nəticəsində növbə Bakı xanlığına çatdı. 1806-cı ildə Bakı xanlığı, az sonra Quba xanlığı ələ keçirildi. Beləliklə, 1806-cı ildə demək olar ki, bütün Şimali Azərbaycan Rusiyanın hakimiyyəti altında idi. 1806-cı ildə Rusiya ilə Türkiyə arasında da müharibənin başlanması Rusiya-İran cəbhəsində rusların vəziyyətini nisbətən ağırlaşdırdı.

Sonradan Rusiya vəziyyətin onun xeyrinə dəyişməsinə nail oldu. Napoleonun Rusiya sərhədlərindən qovulması ilə rus qoşunlarının Avropa səfərinin başlanması nəticəsində beynəlxalq vəziyyətdə yaranan dəyişikliklər İranın Rusiya ilə Gülüstan müqaviləsini bağlamasını sürətləndirdi. Artıq hərbi əməliyyatların Təbriz ərazisinə keçmə təhlükəsi yarandı. Bunun qarşısını almaq üçün Abbas Mirzə sülh danışıqlarına başlamağa icazə verdi. İngiltərə danışıqlarda vasitəçilik edirdi.

Yeri gəlmişkən, qeyd edək ki, iki imperiya arasında ixtilafların dərinləşməsinə, həmçinin digər dövlətlər də maraqlı idilər. Məsələn, Böyük Britaniya hökuməti qüvvədən düşmüş Qacarlar ilə Rusiya arasında barışığa yol verməməyə çalışırdı. 1810-cu ildə general Malkolm yenidən İrana gəlib çoxlu top və tüfəng gətirdi. 1811-ci ildə Ouzli, Harford Consun yerinə Tehrana böyük elçi göndərdi. O, 1809-cu il müqaviləsi üzrə nəzərdə tutulan pul yardımının yeni üçillik məbləğini (360 min funt sterlinq və ya 600 min tümən) Fətəli şaha yetirdi. Tezliklə İngiltərədən Qacarlara 12 top, 12 min mərmi, 12 min tüfəng, 12 min əsgərin geyimi üçün mahud göndərildi. Lakin Böyük Britaniya bu kimi səylərlə Rusiya ilə İran arasında çoxillik müharibənin sonsuzluğadək uzanmasına nail ola bilmədi və iki imperiya arasında Gülüstan müqaviləsinin imzalanması ilə müvəqqəti barışıq təmin edildi.

### Türkmənçay müqaviləsinin imzalanması - istila sona çatıb



Lakin Gülüstan müqaviləsi Rusiya ilə İran arasında bütün ziddiyyətli məqamları aradan qaldırmadı. Müqavilənin birinci maddəsində bəyan edilən sülh uzun sürmədi. 1826-cı ildə tərəflər arasında ikinci müharibə başlandı. Azərbaycan ərazisi yenidən qanlı döyüş meydanına çevrildi. Bu müharibə isə 1828-ci il fevralın 10-da Türkmənçay müqaviləsinin imzalanması ilə yekunlaşdı və Azərbaycan ərazisi ikinci dəfə bölüşdürüldü. Belə ki, Türkmənçay müqaviləsinə əsasən, torpaqlarımız Araz çayı sərhəd olmaqla quzeyə və güneyə bölündü. Müqaviləni Rusiya tərəfindən İvan Paskeviç, İran tərəfindən isə Mirzə Əbdül Həsən xan imzalayıblar. Bununla da məmləkətimizin yüzillikləri əhatə edənn faciələri başlayıb.

Müqavilədə I Pyotrun vəsiyyətlərində ifadə olunmuş müəyyən məqamlar öz əksini tapıb. Sənəddə İrandan erməni əhalisinin Rusiya imperiyasının yeni torpaqlarına (İrəvan, Naxçıvan, Qarabağ və s.) köçməsi, İranın Rusiyaya təzminat (20 mln.rubl) ödəməsi, Rusiya donanmasının Xəzərdə şəriksiz hakim olması və rus tacirlərin İranda ticarət güzəştləri əldə etmələri barədə maddələr də yer alırdı.

Tarix boyunca dünya ədalətli və ədalətsiz müharibələrə şahidlik edib. Yəni əksər müharibələrin qalib və məğlub tərəfləri olduğu kimi, ədalətli və ədalətsiz tərəfləri də olub. Bir dövlət istilaçılıq, təcavüzkarlıq savaşları aparıb, özgə torpaqları hesabına öz ərazilərini genişləndirməyə çalışıb. Digər dövlət isə ərazilərini qorumaq uğrunda müqavimət göstərib. Gülüstan və Türkmənçay müqavilələrinin imzalanması ilə nəticələnən çoxillik müharibələr isə həm İran, həm də Rusiya üçün ədalətsiz müharibələrə idi. Çünki bu müharibələr onların heç birinin ərazisində deyil, üçüncü dövlətin - Azərbaycanın tarixi torpaqlarında gedirdi. Hər iki tərəfin məqsədi özlərinin imperiya maraqlarını təmin etmək idi. İtirən, ərazisi bölünən isə Azərbaycan oldu. O da kədərli faktdır ki, hər iki müqavilədə Azərbaycan toponimindən, ümumiyyətlə, istifadə olunmayıb.

Otuz il davam edən və Azərbaycanın öz gücünə nail olduğu keçmiş Dağlıq Qarabağ münaqişəsinin bünövrəsi də məhz Türkmənçay müqaviləsi ilə qoyulub. Belə ki, müqavilənin şərtləri əsasında İrandan 40 min, Türkiyədən 84 min erməni Azərbaycana köçürülüb. Torpaqlarıməızda özlərinə yer edən ermənilər sonradan Azərbaycana qarşı yeni ərazi iddiaları ilə çıxış ediblər. Ancaq müstəqil Azərbaycan dövləti 44 günlük Vətən müharibəsinin və 23 saatlıq lokal xarakterli antiterror əməliyyatının nəticələri ilə saxta erməni iddialarına son qoydu, imperialist mərkəzlərə öz gücünü və əzmini göstərdi. İlahi ədalət mütləq öz yerini tapır!

*Mübariz ABDULLAYEV*

# Anar mənə zəng edəndə İstanbuldaydım...

## "Boz kardinal"ın "kardinallıq" azarı"... Yaxud Siz kimsiniz, R. Mehdiyev?



*Hidayət*

**əvvəli ötən saylarımızda**

Mən 9 il ölkəmizin Qırğızıstanda fövqəladə və səlahiyyətli səfiri oldum, bu müddətdə həm də ölkə rəhbərimizin, həm də çalışdığım ölkənin liderlərinin (bu müddətdə orda 3 Prezident dönəmində işlədim) fəaliyyətimə dəfələrlə yüksək qiymətlərini qeyd etmək istəmirəm, təkcə onu deyirəm ki, həmin müddətdə möhtərəm Dövlət Başçımızın Sərəncamı ilə 2014-cü ildə "Azərbaycan Respublikası Prezidentinin Fəxri Fərmanı", 2019-cu ildə ikinci dərəcəli "Dövlətə xidmətə görə" ordeni, diplomatik fəaliyyətdən dönəndən az sonra isə... "Heydər Əliyev - 100" yubiley medalı ilə təltif olundum.

Çalışdığım ölkə də ordakı fəaliyyətimi yüksək dəyərləndirdi: bir sıra yüksək mükafatlarla yanaşı, fəaliyyətim başa çatanda "Qırğız Respublikasının Nazirlər Kabinetinin Fəxri Fərmanı" ilə təltif olundum. Bu yüksək mükafat qardaş ölkədə çalışmış səfirlərə ilk dəfə verilirdi.

Təvazökarlıqdan uzaq düşdüyümü sanmayın. Bu abzası Mehdiyevin diqqətinə çatdırmaq üçün qeyd elədim. Onu da qısaca deməliyəm: mən uzaq Bişkekdə çalışanda da Mehdiyev öz "ənənəsindən" dönmürdü, imkanı daxilində fəaliyyətimə mane olmağa çalışırdı. Amma gücü çox məkrinin icrasına çatmırdı.

Mehdiyev yalnız siyasi vəzifə fəaliyyətimlə deyil, bədii yaradıcıllığımın, haqqımda yazıların çapının, mükafatlandırılmağın qabağını kəsmək üçün nəyə desən əl atırdı, hətta başqalarını şərləməkdən də çəkinmirdi. Bircə epizodu deyəcəyəm: 2007-ci ildə teatr ictimaiyyəti israsla fəxri ada təqdim olunmağım üçün məni məlumatlandırdılar. Dedim: "Tələsməyin, siyasi vəzifə olduğum üçün məsləhətləşməliyəm. Mehdiyevə dedim. Dedi: "Baxarıq...". İki-üç gün sonra söylədikləri: "Yazıçılar Birliyində çoxu deyir ki, əgər Hidayətə fəxri ad verilsə - hamımız istefa verib gedəcəyik". Gülünc, çox gülünc və uydurma. Amma başım çox qarışıq idi, "ABŞ-a səfərim ərəfəsindəydi, yüksək kürsüdən çıxış, çoxsaylı görüşlərə hazırlıq. Elə həmin günü Yazıçılar Birliyinin katibi Arif Əmrahoğlu (Allah rəhmət eləsin!) xahiş etdi ki, onu bir vacib məsələ üçün qəbul edim. Gəldi, söhbətarası bunu da ona dedim. Çox təəccübləndi, "hər şeyə inanmaq olar, bircə bundan başqa!" Anar müəllim on gündür səfərdədir, bu əcaib bəyanatı kim verə bilər?. Anar səfərdən qayıdan kimi mənə telefon açanda İstanbulun hava limanındaydım, Nyu-Yorka uçan təyyarəyə əyləşməyə hazırlaşırdım. Salamdan dərhal sonra: "Hidayət, siz inanırsınız ki, Birliyin hər bir əməkdaşı, rəhbərliyi demirəm hələ, sizin haqqınızda elə söz desin?". "Yox, inanmıram, yalnız Yazıçılar Birliyində çalışanları demirəm, Birliyin çoxminli üzvləri də belə deməz".

Yazıçılar Birliyi ondan sonra iki dəfə məni fəxri ada təqdim etdi, ikisi də Mehdiyevin "arxivinə" göndərildi.

Hamıya məlumdur ki, mən Vəzirovun, Mütəllibovun Ulu Öndərə qarşı açıq-aşkar siyasəti dönəmində onu mətbuatda ardıcıl, qətiyyətlə dəstəkləmişəm. Bu dəstək həm də çox təhlükəliydi. İndi o barədə açıq danışmaq istəmirəm. Mehdiyevdə isə qərəz, məni təqib ehtirası o qədər güclüydü ki, Ulu Öndər əbədiyyətə qovuşandan sonra da mənim bu mövzuda yazılarımın çapına qadağa qoyurdu. 2004-cü ilin əvvəlində qələmi aldığım, Ulu Öndərin dahiyanə fəaliyyətinə, erməni qısqanclığından, cənab Prezidentin alternativsiz siyasətindən bəhs edən "İrəvana 7 məktub" essemi "Azərbaycan" qəzeti dərc eləmədi. Esse kitab şəklində orijinalda və rus dilində çap olundu, yenə də təvazökarlıqdan uzaq olmasın - ciddi maraq doğurdu. Yaxud xalqımıza qarşı yüz illər boyu hazırlanmış erməni təcavüzünün qaranlıq səhifələrini açan "İrəvanda xal qalmadı" pyesimi Akademik Milli Dram Teatrımız dövlət sifarişi kimi yüksək səviyyədə səhnəyə hazırlasa da, tamaşanı bədii şura yekdil, birmənalı, yüksək səviyyədə qəbul etsə də (əsərdə Ulu Öndərin də bədii portreti əks olunmuşdu), hətta tamaşanın premyerası günü təyin olunsa da, Mehdiyevin əmri ilə qəflətən dayandırıldı. Bəlkə bu yazıda artıq haqqında danışdığım "Bu dünyanın adamları" tamaşasının uğurlarının təkrarlanmasından ehtiyatlanırdı? Axı, o tamaşa Akademik Milli Dram Teatrında 116 dəfə göstərildi. Yetmişinci illərdən sonra teatrlarımızda belə hadisə olmamışdı. O əsər Səməd Vurğun adına Rus Dram Teatrında, ölkəmizin başqa teatrlarında, Ankaranın Bələdiyyə Teatrında, Bişkekin Rus Akademik Dram Teatrında da uğurla tamaşaya qoyuldu.

2014-cü ildə mətbuatda mənim bir müsahibəm çap olundu. Başlığı beləydi - "Son iyirmi ildə məni göydə Allah, yerdə Ulu Öndər Heydər Əliyevlə, Prezident İlham Əliyev qorudular". Müsahibə Mehdiyevi qəzəbləndirmişdi, hətta iclas etdiyi media orqanlarının rəhbərlərinə ciddi "iradını" gizlətməmişdi. Bu barədə mənə həmin müşavirənin iştirakçısı bildirmişdi. Hələ bu harasıdır...

2019-cu ildə hələ də Bişkekdə olanda iş başımdan aşsa da, Rusiyada fəaliyyət göstərən "Paxlava Production" internet televiziya kanalında peyda olan Ə.Vəzirovun sayıqlamaları, Ulu Öndər barədə şərlərinə, böhtanlarına münasibət bildirilməməsi məni rahat buraxmırdı. Vəzirov o efirə elə-belə görünmürdü. O günlərdə bir qrup Bakıda mitinqə çıxmışdı... Vəzirov son dəfə televiziya ekranında ondan 27 il öncə görünmüşdü - 20 Yanvar qətliamının iki illiyində, əvvəlki hətərən-pətərən ampluasında. Yazmaya bilməzdim.

"Ə.Vəzirova açıq məktub"um o illərdə populyar olan "Yeni fikir" qəzetində (23 yanvar, 1992) dərc olunmuşdu. Məktubda deyilənlər milyonların ürəyincə olsa da, məni təqib edən rəsmi rəhbər işçilər də az deyildi. Vəzirovun vəzifələrə təyin etdiyi, qətliama yol verilməməsi istiqamətində heç bir əməli fəaliyyəti olmayanların çoxu hələ öz əvvəlki rahat qoltuqlu stullarında, Ayaz Mütəllibovun yaxın ətrafındaydılar. Bəs 2019-cu ildə? Ağlabatmaz susqunluq nə üçün idi? Prezident Aparatının bir yüksək vəzifəlisi ilə danışdım. Heç nə dəyişmədi. Və məcbur oldum özüm yazım. 1992-ci ilin əvvəllərində çap olunmuş məktubu olduğu kimi, bir sözünə, nöqtəsinə, vergülünə əl vurmadan, 27 il sonrakı P.S əlavəsi ilə: P.S-in adı - "Şər qazanı!". Məzmunu haqqında danışmaq istəmirəm - adından bəllidir. Məktub azı üç-dörd populyar qəzetdə dərc edildi. Bəs münasibət? Mehdiyev hər həftə keçirdiyi baş redaktorların müşavirəsində həmin qəzetlərin baş redaktorlarına ciddi "irad tutub" ki, Hidayətin yazısını niyə dərc edibsiniz. Bu da azmış kimi - o müşavirədən az sonra Mehdiyevin mənə qarşı qərəzinin, məkrinin icrasında onun sağ əli olan "Respublika" qəzetinin baş redaktoru Teymur Əhmədov hansısa kənddə çıxan bir qəzetdə "Məktub"un adını çəkmədən mənim haqqımda hədyanlar yazdı. Elə yalanlar, böhtanlar idi ki, şər qazanında bişmiş "Respublika"da dərc etməyə qorxmuşdu

Belə-belə işlər, Mehdiyev. Şərhə ehtiyac yoxdur!..

Bu yazıda qeyd etdiyim "Məni son iyirmi ildə göydə Allah, yerdə Ulu Öndər Heydər Əliyevlə cənab Prezident İlham Əliyev qorudular" essesinin Mehdiyevi hövsələdən çıxarmasının səbəbi "dərk" oluna bilər, axı o, məni təqib edənlərin başında özünü görürdü. Bəs Vəzirovun sayıqlamalarına cavabım niyə onu qəzəbləndirdi? Yadıma yenə onunla ilk görüşümüz - Elmlər Akademiyasının kiçik otağındakı söhbətimiz düşdü: mən söhbəti iki dəfə Ulu Öndərimizin üstünə gətirdim, ona qarşı haqsız hücumlardan danışdım, o hər iki dəfə söhbətin yönünü dəyişdi. O vaxt hamı bilirdi ki, məbuatda Heydər Əliyevi açıq-aşkar ardıcıl müdafiə edirəm. Respublika rəhbərliyi buna görə məni açıq-aşkar sıxışdırırdı. Ancaq çox az sayda olsalar da, təşəkkür edənlər də vardı. Bircə epizodu qısaca deyəcəyəm: "Gənclik"də baş redaktor otağımın qapısı açıldı - akademik Cəlal Əliyev otağa daxil oldu. Bu vaxtacan mən onu görməmişdim, ancaq gələn kimi suyumundan tanıdım. Mənə dərin təşəkkür etdi, sonra əlaqələrimiz ardıcıl oldu. O, Ulu Öndərin Moskva mətbuatına verdiyi müsahibələri mənə göndərər, mənsə nəşriyyatımıza yeni qoyulan faks vasitəsilə Türkiyədəki, İrandakı, Polşadakı... dost həmkarlarıma göndərir, onlar da yalnız öz vətənlərində deyil, digər ölkələrin mətbuatına ünvanlayırdılar... İllər ötəndən, xalqın təkidli tələbiylə Ulu Öndər hakimiyyətə qayıdandan sonra Cəlal Əliyev Respublika Sarayının rəsmi VİP otağında 10-12 yüksək vəzifəli şəxslərə deyirdi: "Gördüm Hidayət Orucov belə yazır... Bir dəfə, iki dəfə, ümumiyyətlə, ardıcıl, soruşdum kimdir? Dedilər: " "Gənclik" nəşriyyatının baş redaktorudur. Əvvəlcə "sekretarımı" göndərdim - kimliyini dəqiq öyrənsin. Getdi, qayıtdı, çox yüksək fikirlər söylədi. Sonra özüm durub getdim yanına... "Cəlal müəllimin "sekretarı" (bu sözü özünün dediyi kimi saxladım) mənim yanıma öz kitabını nəşr etmək bəhanəsiylə gəlibmiş və bizim söhbətimiz yalnız bu istiqamətdə gedibmiş, kitab çap etdirmək məsələsi isə elə o görüşdə qalmalıymış... O vaxtlar Ulu Öndərə qarşı haqsız, qərəzli başsız hücumlardan narahat olan tək-tük ziyalılar da xəlvətcə mənə təşəkkür edirdilər.

Mehdiyev isə Ulu Öndər haqqında xoş söhbətdən yayınırdı.

Bir məqamı da xatırlamamaq olmur, axı, Mehdiyevin mənim hətta hərdən qələmə aldığım çox gərəkli mövzulardakı yazılarımı da "bloklaşdırmaqda" uzun illər boyu formalaşmış "təcrübəsi" vardı. Çox illər öncəni - 1996-cı ili xatırlayıram: vacib xidməti işlərimlə bağlı tez-tez getdiyim Dağıstan həqiqətlərini öyrəndikcə böyük dövlət xadimi Əziz Məmmədkərim oğlu Əliyevin İkinci Dünya müharibəsində bu diyarı faşist işğalından qoruması, deyərdim ki, xilas etməsi həqiqətləri qəlbimi qürur hissi ilə çırpındırırdı. Dağıstanın işğaldan xilası həm də Azərbaycanın xilası idi! Siyasi çıxışlardan, dialoqlardan, rəsmi məruzələrdən sonra da o möhtəşəm hadisəni yazıçı kimi qələmə almaya bilməzdim. "Qurucu Əziz" tarixi essesi bu zərurətdən yarandı. Yazını "Azərbaycan" qəzetinə təqdim etdim, bir hissəsi çap olundu, sonda - "davamı növbəti nömrəmizdə" məlumatı ilə. Ertəsi gün... Davamı yox idi. Nə üçün? Heç kəsdən soruşmadım, kimsəyə telefon açmadım, bu ağılabatmaz gedişin sonrasını gözlədim. Demə... Ulu Öndər esseni oxuyurmuş, ertəsi günü qəzetdə davamını görməyəndə təəccüblənir, köməkçiyə tapşırır ki, qəzetin baş redaktoruna zəng çalıb səbəbini soruşsun. Baş redaktor Prezidentin köməkçisinə deyir: "Şöbə müdiri zəng edib Ramiz Mehdiyevin adından qəti tapşırdı ki, bu yazının çapını dayandırın".

Köməkçi Prezidentə məruzə edir, Prezident baş redaktoru çağırtdırıb sərt iradlar edir: "Səni həbsə atsaydılar, əgər sənin başına silah tutsaydılar da o yazının davamını verməli idin. Sən bilmirsən Əziz Əliyev Dağıstan üçün kimdir? Azərbaycan üçün kimdir? Mənim üçün kimdir?". Əmir Mustafayev bir məqamı da hər yerdə həyəcanla söyləyirdi: "Mən Prezidentin qəbul otağına daxil olanda Mehdiyevlə şöbə müdiri ordan çıxırdılar, elə çaşqın, özlərini itirmiş halda idilər, öncə Prezidentin liftinə doğru addımlamaq istədilər". Bu mənzərə öncə dediyim kimi - 5 il sonra - Dünya Azərbaycanlılarının Birinci Qurultayı ərəfəsində mənə qurulan "mühakimədən" sonrakı "öz liftlərini" tanımadıqları mənzərəni xatırlatdı.

"Qurucu Əziz" mənim böyük dövlət xadimi haqqında yeganə essem olmadı, ardınca "Odlar Yurdunun və Dağlar Diyarının böyük oğlu" yazıldı, rus, türk, ingilis, Dağıstan dillərində çap olundu və oralarda bir Mehdiyev "tapılmadı"ki, çapına qadağa qoysun!

"İrəvana 7 məktub"un çapına qadağa qoyulması, "Ə.Vəzirova açıq məktub" üçün baş redaktorlara təpki birdən peyda olmamışdı. Onu da deyim ki, "7 məktub"a qadağa qoyulanda Əmir həyatda yox idi, yeni redaktora da "gözün üstə qaşın var" deyən tapılmazdı, çünki özlərinin razılığı, göstərişi ilə olmuşdu - və... şübhəsiz, baş redaktor da öncədən onlarla məsləhətləşməmiş deyildi!

Bir xüsusiyyətini, cəhətini də unutmaq olmur. İşində peşəkar olanları, güclü milli təəssübkeş işçiləri sevmirdi. Bu barədə düşünəndə, bu sətirləri yazanda onun təqib etdiyi neçə-neçə dövlət məmuru, ədəbiyyat, incəsənət xadimi, digərləri keçir gözlərimin önündən. Onlardan yalnız biri barədə qısaca danışıram: Alqış Həsənoğlu istedadlı jurnalist, peşəkar qəzet tərtibatçısıdır, baş redaktoru olduğu "Yeni Azərbaycan" qəzeti o illərdə də maraqla oxunurdu, ancaq həmişə Mehdiyevin ardı-arası kəsilməyən təqiblərindən xilas ola bilmirdi. Mən o qədər çox təəccüb edirdim ki, bir dəfə belə münasibətin səbəbini soruşdum. Nə desə yaxşıdır? - "Yeni Azərbaycan"ı ədəbiyyat qəzetinə çevirib. Elə təəccübləndim ki, ürəyimdən keçən sözləri saxlaya bilmədim: "Həftədə bir-iki dəfə ədəbi materiallar da çap edir. Bunun nəyi pisdir ki? Mən hələ qatı sovet rejimi dövründə, 21 yaşımda olanda "Sovet Ermənistanı" qəzetinin iclasında çıxış edib dedim ki, "Pravda", "İzvestiya" qəzetləri hər həftə ədəbi materiallar çap edir. Amma - biz yox. Ondan sonra qəzet ara-sıra ədəbi materiallar çap etməyə başladı və çox yaxşı qarşılandı.

Əlbəttə, fikrini dəyişmədi, Alqışı baş redaktorluqdan uzaqlaşdırdı. Ancaq həqiqət sonra məlum oldu... Demə, 2003-cü il Prezident seçkilərinə hələ bir ildən çox vaxt qalanda mətbuatda İlham Əliyevə "alternativ axtarışı" kampaniyası başlayıbmış, 2-3 namizədin adı hallandırıldı, ilk ad isə - R.Mehdiyev. Alqış Həsənoğlu "Nə üçün məhz İlham Əliyev?" yazısı ilə ("Yeni Azərbaycan", 19 aprel, 2002) bu kampaniyanın heç bir əsasa, məntiqə söykənmədiyini tutarlı siyasi arqumentlərlə bəyan etdi. R.Mehdiyevin kampaniyada birinciliyini tamamilə əsassız saydı. Alqış 14 il işsiz qaldı. Sonra möhtərəm Prezidentimizin diqqəti sayəsində keçmiş vəzifəsinə bərpa olundu "Yeni Azərbaycan" indi zəngin mediamızda mövzu dairəsi, peşəkar səviyyəsi ilə özünəməxsus yüksək yer tutur. Hər həftə çap etdirilən "Şənbə qiraəti" və digər ədəbi materiallar da maraqla oxunur.

**May, sentyabr, 2025.**

Alqış, Mehdiyevin fəaliyyətinin şişirdilməsi gülünc kampaniyasına əsaslı tənqidlərini, köklü iradlarını adını çəkdiyim ifşaedici yazı ilə bitirmədi, sonra "R.Mehdiyev nə vaxtdan bəri dövrümüzün mahir tədqiqatçısı və görkəmli filosofu olub? Prezident Administrasiyasının rəhbəri vəzifə səlahiyyətlərini aşır" obyektiv sərt məqaləsini çap etdirdi ("Yeni Azərbaycan" qəzeti, 15 iyun, 2004). Bir məqamı da xüsusilə vurğulamalıyam: Mehdiyev iş başında olanda-qılıncının dalının da kəsdiyi zamanlarda yalnız Alqış Həsənoğlu baş verən çox zərərli təxribatlara qarşı mediada belə kəskin publisistika ilə çıxış etmişdi.

**May, sentyabr, 2025**

**P.S**

Bu sətirlər uzun vaxtda qələmə alındı, çünki mövzusu mənim yaradıcılıq aləmimdən çox aralı idi. Amma Ön sözdə dediyim kimi - yazılmalıydı, mütləq yazılmalıydı, gələcək bədxahlıqların qabağını almaq, insanları bəd əməllərdən qorumaq üçün yazıldı. Yazı prosesində bəzi faktları dəqiqləşdirmək üçün telefonla 4-5 tanınmış insanla əlaqə saxladım, əlbəttə, zəngimi məqsədini demədən. İndi o insanlar bu yazımı oxuyanda bizim söhbətimizi, mənim sualımı xatırlayacaqlar. Mehdiyev 27 il mənə qarşı yorulmadan fasiləsiz, tənəffüssüz mübarizə apardı. Bir adamda nə qədər qərəz, məkr, amansız xislət olarmış? 27 il yorulmadan, insafa gəlmədən!

Yazını yığılmaq üçün kompyuterçiyə verməyə hazırlaşanda...mətbuatda ölkə Təhlükəsizlik Xidmətinin çox ciddi ittihamı çap olundu. Zəngəzurda, mənim doğma dədə-baba kəndim Maralzəmidə, hələ kommunist rejiminin "mənəm-mənəm" vaxtlarında belə hallarda deyərdilər:

"Göydə Allah var, eee!!!".

Uşaqlıqda eşitdiyim bir dədələr sözü də həmişə yadımdadır: "Dar qaz, gen qaz, fərqi yox - axırda özün düşəcəksən!!!".

**17 oktyabr, 2025.**

# "Yaşıl" inkişaf üçün...

## Dünya Bankı karbon emissiyasının azaldılması və "yaşıl iqtisadiyyat"a keçidə dəstək verir

Enerji Məsələlərini Tənzimləmə Agentliyinin (EMTA) İdarə Heyətinin sədri Samir Axundov Dünya Bankının (DB) Azərbaycan üzrə ölkə meneceri Ştefani Ştalmaysterin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Görüşdə Azərbaycanda qaz təchizatı sahəsində islahatlar, eləcə də tarif mexanizmləri ətrafında məsləhətləşmələr aparılıb. Həmçinin Azərbaycanda metan emissiyalarının azaldılması səylərinin davam etdirilməsi, o cümlədən qaz infrastrukturunun modernləşdirilməsini dəstəkləmək üçün Dünya Bankı, eləcə də digər maliyyə qurumlarından əlavə potensial investisiya ayrılmasının perspektivləri nəzərdən keçirilib.

**Karbon emissiyasının azaldılması naminə**

Azərbaycan hökuməti qarşısında duran əsas prioritetlərdən biri ekoloji təmiz texnologiyaların və "yaşıl" texnologiyalara tətbiqinin geniş yer verilməsi, ekoloji baxımdan əlverişli olan mənbələrin istifadəsinin artırılması və istehsalın müasir "yaşıl iqtisadi resurslara" əsaslanması başlılca hədəf prioritetlərdir. "Azərbaycan-2030" konsepsiyasında müəyyən edilmiş beşinci milli prioritet - "Təmiz ətraf mühit və "yaşıl" inkişaf ölkəsi də bu prinsiplərə əsaslanır və əsas məqsəd karbonzuslaşdırma yönümlü idaretmənin təmin olunmaısıdır. İstilik effekti yaradan qazların - karbon dioksid (CO2), metan (CH4), azot oksidi və xlor-fülor birləşmələrin konsentrasiyasının azaldılması bu prinsiplər sırasında əsas yer tutur. Bu baxımdan karbon emissiasının azaldılması "yaşıl iqtisadiyyat"a keçid üçün də əsas stimullardan biridir. Hazırda dünyada iqlim dəyişmələri fonunda azalan təbii ehtiyatlar və bəşəriyyətin artan tələbatı digər resursların istehlakını yüksəldir. Çünki iqlim dəyişikliyi ekoloji tarazlığı pozaraq biomüxtəlifliyə də təsir edir və mövcud istehsal blokalarını zəiflədir. Dünya Bankının hesablamalarına əsasən, iqlim dəyişikliyinin təsiri nəticəsində 2050-ci ilədək qlobal ÜDM illik 1,5-5 faiz arası azalacaq. Həmin tələbatların ödənilməsi isə müasir rəqəmsal və "ağıllı texnologiyalar"ın gemiş tətbiqi yolu ilə "yaşıl iqtisadiyyat" quruculuğundan keçir. Bu gün inkişaf etmiş ölkələrin hər biri üçün dayanıqlı inkişafın əsas atributu "yaşıl maliyyə"ni təmin edən "yaşıl resurs"ların istehsalı və emalının əhəmiyyətli şəkildə artırılmasıdır.



Ona görə də Azərbaycan üçün de-karbonizasiya həm ekoloji hədəflərə çatmaq, həm də müasir innovativ iqtisadiyat qurmaq baxımından xüsusi əhəmiyyət kəsb edir. Ölkəmiz beynəlxalq təcrübəyə əsaslanaraq "yaşıl iqtisadiyyat"a keçid üçün müxtəlif iqtisadi alətlərdən istifadə etməyi planlaşdırır. Strateji Yol xəritəsinə əsasən, bu sahəyə biznesi həvəsləndirmək üçün müxtəlif iqtisadi təşviqlərin verilməsi nəzərdə tutulur.

**Beynəlxalq "yaşıl əməkdaşlıq"...**

SOCAR 2050-ci ilə qədər enerji keçidini özünün prioritet inkişaf istiqamətlərindən biri kimi müəyyənləşdirib. Bu məqsədlə şirkət "yaşıl" gündəlik üzrə mühüm öhdəliklər götürüb. Artıq 2 ilə yaxındır ki, qurumda neft-qaz şirkətindən enerji korporasiyasına çevrilmək üçün transformasiya prosesi həyata keçirilir. Bununla yanaşı, yeni bizneslərin yaradılması istiqmətində səylərini artıran şirkət aşağı karbonlu bizneslərdən sayılan külək, Günəş, hidrogen enerjisi, eləcə də digər istiqamətlərdə araşdırmalar aparır. Aşağı karbonlu layihələrin icrası isə qurumun tərkibində yaradılmış SOCAR GREEN şirkəti vasitəsilə həyata keçirilir.

SOCAR istixana qazlarının emissiya göstəricilərinin, karbon dioksid və metan emissiyalarının azaldılması üzrə real addımların öyrənilməsi və şirkətin "yaşıl" layihələr portfelinin qiymətləndirilməsinə əsasən 2050-ci ilədək mərhələli dekarbonizasiya proqramı hazırlayıb.

Bu hədəflərə uyğun olaraq SOCAR və Dünya Bankı arasında qazpaylama şəbəkəsində qaz sızmalarının aşkarlanması və aradan qaldırılması mexanizminin investisiya maliyyələşdirilməsi layihəsinin icrası nəzərdə tutulub. Ümumi dəyəri 15 milyon dollar təşkil edən layihənin DB tərəfindən aprel ayında təsdiqlənməsi planlaşdırılır. Layihə bütün ölkə ərazisini əhatə edəcək, eyni zamanda, maliyyə vasitəçilərinin cəlb edilməsi nəzərdə tutulmur.

Təşəbbüsün məqsədi "Azəriqaz"ın istismar etdiyi qazpaylayıcı şəbəkədən metan emissiyalarının azaldılması, həmçinin şirkətin aktivlərin idarə edilməsi sahəsində potensialının gücləndirilməsidir. Dünya Bankının qiymətləndirməsinə görə, köhnəlmiş infrastruktur səbəbindən əhəmiyyətli qaz sızmaları ilə üzləşir və bu infrastrukturun böyük hissəsi 50 ildən çox istismar edilir. Sızmaların həcmi ildə təxminən 160 milyon kubmetr qaz təşkil edir ki, bu da 107 kiloton metan ($CH_4$) ekvivalentinə bərabərdir. Təhlil göstərir ki, həcm baxımından bu sızmaların təxminən 80 faizi 7 il ərzində nisbətən sadə və iqtisadi cəhətdən səmərəli tədbirlər hesabına aradan qaldırıla bilər.

DB-nin ekspertlərinin qiymətləndirmələrinə qlobal istiləşmə potensialı əmsalının 28-ə bərabər götürülməsi ilə layihənin icrası istixana qazı emissiyalarını ildə təxminən 2,4 milyon ton $CO_2$-ekvivalentinə qədər azaltmağa imkan verəcək.

Layihə çərçivəsində qazpaylayıcı sistemdə qaz sızmalarının müəyyənləşdirilməsi və aradan qaldırılması üzrə ixtisaslaşmış maliyyə mexanizmi yaradılacaq.

**Avropa Bankı və "TotalEnergies"lə "təmiz enerji" gündəliyi**

Hökumət Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) ilə də karbonsuzlaşdırma proqramı çərçivəsində əməkdaşlıq edir. Bankın Qafqaz üzrə regional direktoru Katarina Byorlin Hansenin fikrincə, bu çərçivəyə əsasən, Qaradağda ilk özəl Günəş elektrik stansiyasının tikintisinə sərmayələr qoyulub, son illərdə investisiyalarımızın 70 faizindən çoxu "yaşıl" iqtisadiyyata yönəldilib. Növbəti əməkdaşlıq fazasına əsasən, AYİB-lə hökumətin əməkdaşlığı bu səmtdə inkişaf etdiriləcək.

Eləcə də "TotalEnergies" şirkəti ilə birlikdə neft-qaz mədən ərazilərində dron əsaslı metan emissiyalarının aşkarlanması və həcminin ölçülməsi tədqiqatları həyata keçirilir. Layihə çərçivəsində "TotalEnergies" və onun tərəfdaşları tərəfindən hazırlanmış AUSEA (Airborne Ultralight Spectrometer for Environmental) texnologiyasından istifadə edilməklə emissiya tədqiqatlarının həyata keçirilməsi nəzərdə tutulub. AUSEA metan emissiyalarını aşkarlayan, eyni zamanda, onların mənbəyini təyin edə bilən dronda quraşdırılmış sensordan ibarətdir. Bu isə neft və qaz obyektlərindən atılan metan emissiyalarının yüksək dəqiqliklə aşkarlanmasına və həcminin ölçülməsinə imkan verəcək. Bu sahədə ilkin tədqiqatlar "TotalEnergies" şirkətinin Xəzər dənizindəki fəaliyyət sahələrində aparılıb. Növbəti mərhələlərdə bu tədqiqatların SOCAR-ın dənizdə yerləşən fəaliyyət sahələrində aparılması nəzərdə tutulub.

*E.CƏFƏRLİ*

# Qərbi Azərbaycan İcması ABŞ vitse-prezidentinə müraciət edib



Qərbi Azərbaycan İcması ABŞ-ın vitse-prezidenti Ceyms Devid Vensin Azərbaycana səfəri ilə əlaqədar ona müraciət ünvanlayıb. Müraciətdə “”Odlar Yurdu”na xoş gəlirsiniz. Azərbaycan sülhpərvər məmləkətdir. Ölkəmizdə tarixən müsəlmanlar, xristianlar, yəhudilər sülh və əmin-amanlıq şəraitində yaşamışlar. Azərbaycan ailə dəyərlərinə, mənəvi-ənənəvi dəyərlərə böyük önəm verən bir ölkədir”- deyə bildirilir.

Qeyd olunur ki, Azərbaycanın xristian dünyası ilə, Müqəddəs Taxt-Tacla münasibətləri uğurla inkişaf edir. Son vaxtlar ölkəmizdən Vatikana çoxsaylı yüksəksəviyyəli səfərlər edilib. Keçən il Bakıda “İsa Məsihin son Zaman Müqəddəsləri Kilsəsi”sinin Bakı ofisinin açılış mərasimi keçirilib. Eyni zamanda, Bakıda ikinci katolik kilsəsinin inşası nəzərdə tutulur.

Diqqətə çatdırılıb ki, keçmiş Sovetlər İttifaqının rəhbərliyinin cinayətkar laqeydliyi ucbatından 1987-ci ildən başlayaraq Ermənistanda Qərbi azərbaycanlılar deportasiyaya məruz qalıb, kəndləri, yurd yerləri boşaldılıb, yandırılıb, talan olunub, məscidləri, mədəni irsi dağıdılıb. Qərbi azərbaycanlıların mədəni irsi mənimsənilib, tarixi saxtalaşdırılıb. Xüsusilə, İrəvanda azərbaycanlılara məxsus Göy Məscidin mahiyyəti dəyişdirilib. Qərbi azərbaycanlılar bu illər ərzində Azərbaycan cəmiyyətinə inteqrasiya olunsalar da, heç vaxt Ermənistandakı öz dədə-baba yurdlarını unutmayıb, daim ora dönmək arzusu ilə yaşayıblar.

**“Ermənistana heç bir ərazi iddiası yoxdur”**

Müraciətdə vurğulanır ki, Qərbi azərbaycanlıların Ermənistana heç bir ərazi iddiası yoxdur, onlar Ermənistanın suverenliyinə qarşı çıxmırlar: “Tam əksinə, Qərbi azərbaycanlılar Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistanla dayanıqlı sülhə nail olmaq siyasətini, eləcə də ABŞ Prezidenti Donald Trampın dəstəyi ilə inkişaf edən Azərbaycan-Ermənistan normallaşma prosesini tam dəstəkləyirlər. Biz 2025-ci il 8 avqust tarixində keçirilmiş tarixi Vaşinqton görüşünü, Azərbaycan, Ermənistan və ABŞ liderlərinin imzaladığı Birgə Bəyannaməni, Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin paraflanmasını alqışlayırıq. Biz, həm də Vaşinqton görüşündən sonra Azərbaycan və Ermənistan arasında normallaşma prosesində əldə olunmuş tərəqqini, iki ölkə arasında etimad quruculuğu tədbirlərini, o cümlədən ticarət əlaqələrinin başlanmasını tam dəstəkləyirik. Biz, eyni zamanda, “Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu”nun tezliklə reallaşmasını gözləyirik”.

C.D.Vensə ünvanlanan müraciətdə o da bildirilir ki, son vaxtlar, həm də, ABŞ administrasiyası sayəsində əldə olunmuş bütün bu nailiyyətlər bizdə belə bir inam yaradır ki, Qərbi azərbaycanlılar uzun həsrətdən sonra Ermənistandakı öz dədə-baba yurdlarına dönəcək, dağıdılmış yurd yerlərini, evlərini bərpa edəcək, yenidən qəbiristanlıqlarını ziyarət edəcək, məscidləri bərpa edəcək: “Bunun üçün bizim bütün tərəqqipərvər bəşəriyyətin, xüsusilə ABŞ-ın dəstəyinə ehtiyacımız var. Biz inanırıq ki, sizin regiona səfəriniz iki dövlət, iki xalq arasında münasibətlərin normallaşması, iqtisadi-ticarət əlaqələrinin güclənməsi, nəqliyyat əlaqələrinin başlanması prosesinə böyük töhfə verəcək”.

**Qərbi azərbaycanlıların fundamental haqları...**

Nəzərə alaq ki, Qərbi azərbaycanlıların doğma yurdlarına qayıdışının təmin olunması onların beynəlxalq hüquq çərçivəsində müəyyənləşmiş fundamental haqlarından biridir. Qərbi azərbaycanlıların tarixi torpaqlarımıza qayıdışının təmin edilməsi üçün bütün imkanlardan, o cümlədən beynəlxalq platformalardan istifadə olunur. Bu istiqamətdə Qərbi Azərbaycan İcması müvafiq beynəlxalq təşkilatlara müraciətlər edir.

Məlumdur ki, Azərbaycan xalqı ötən iki əsr ərzində silahlı münaqişələr, işğal, etnik təmizləmə, zorla köçürülmə və soyqırımılarından böyük əziyyət çəkib. Azərbaycanlıların vaxtilə mütləq əksəriyyət təşkil etdiyi indiki Ermənistan ərazisindən tamamilə qovulması 1991-ci ildə başa çatıb. Aparılmış etnik təmizləmə nəticəsində indi həmin ərazidə yalnız ermənilər yaşayırlar. Azərbaycanlılara qarşı törədilmiş etnik təmizləmə əksər hallarda dövlət orqanlarının sistemli fəaliyyəti ilə zorakılıq, soyqırımı, kütləvi qətliam və insanlıq əleyhinə digər cinayətlər və insan hüquqlarının kobud pozulması yolu ilə həyata keçirilib. Bu proses 1905-1906, 1918-1921, 1948-1953 və 1987-1991-ci illərdə xüsusilə şiddətli və amansız olub. Ermənistan adlanan ərazidə azərbaycanlılara məxsus olan tarixi və mədəni irs, o cümlədən məscidlər və qəbiristanlıqlar kütləvi şəkildə dağıdılıb, yer adları dəyişdirilib, azərbaycanlılara qarşı sistematik xarakterli irqi ayrı-seçkilik həyata keçirilib.

**Sülh qayıdışa imkan yaradır**

Azərbaycanın öz ərazilərini işğaldan azad etməsi, müharibənin qələbə ilə başa çatması ədalətin bərpa olunması istiqamətində mühüm addım olub və iki ölkə arasında sülh imkanlarını artırıb. Digər tərəfdən, indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların öz evlərinə qayıda bilməməsi, bu ölkədə monoetnik dövlətçilik, etnik təmizləmə və sistematik irqi ayrı-seçkilik vəziyyətinin davam etməsi böyük ədalətsizlikdir və bu, davamlı sülhün bərqərar olunmasına böyük əngəl törədir.

Ermənistan rəhbərliyinin azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə öz doğma torpaqlarına geri qayıtması hüququnu təkzib etməsi, yüz minlərlə azərbaycanlının daxil olduğu Qərbi Azərbaycan İcmasının Ermənistan rəhbərliyini bu istiqamətdə dialoqa çağırışına qarşı çıxması, bu hüquqların tələbinin “ərazi iddiası” kimi təqdim edilməsi Ermənistanın “insan hüquqlarına” heç bir dəyər verməyən və “etnik təmizləmə əsasında monoetnik dövlət titulunu” qorumaq üzrə məkrli siyasətinin bir göstəricisidir.

Görünən odur ki, qərbi azərbaycanlıların qayıdışı məsələsinin beynəlxalq müstəviyə çıxarılması Ermənistanı çox ciddi şəkildə narahat edir. Əgər belə olmasaydı, bu ölkənin rəsmilərində, həm də erməni cəmiyyətinin müxtəlif nümayəndələrində bu  mövzu təşviş yaratmazdı. Amma onların nə deməsindən asılı olmayaraq, qərbi azərbaycanlıların tarixi torpaqlarına qayıdışı mütləq gerçəkləşməlidir. Təsadüfi deyil ki, Qərbi Azərbaycan İcması BMT Baş katibinə, Avropa İttifaqı Şurasının Prezidentinə, UNESCO-ya və digər beynəlxalq təşkilatlara müraciətlər edib. ABŞ-ın vitse-prezidenti Vensə də müraciətin edilməsi qayıdış istiqamətində sistemli tədbirlər görüldüyünü təsdiqləyir.

*Nardar BAYRAMLI*

# Fransaya çağırış!

## Qərbi azərbaycanlıların taleyinə niyə münasibət bildirilməyib?

*Nardar BAYRAMLI*

Fransa Azərbaycana qarşı qərəzli mövqeyindən əl çəkmir. Rəsmi Paris “ermənilərdən çox ermənilik” edərək hər fürsətdə ölkəmizlə bağlı qərəz və böhtan dolu mövqe sərgiləyir. Bugünlərdə Fransa Milli Assambleyasının keçmiş separatçı rejimin nümayəndələrinin “dərhal və qeyd-şərtsiz azad olunması” ilə bağlı qəbul etdiyi qətnamə də bunun göstəricisidir. Fransa parlamentinin saytında yerləşdirilən məlumata əsasən, “sənəd”in lehinə 183 üzv səs verib, əleyhinə isə səs verən olmayıb. Qətnaməni Fransa-Ermənistan Dostluq Qrupu adından parlamentin üzvü Loran Vaukiez təqdim edib və bir sıra parlamentarilər onu dəstəkləyiblər. Parlamentdə “sənəd”in yekdilliklə qəbul edilməsi burada ifadə olunan mövqenin təsadüfi deyil, sistemli və siyasi sifariş xarakteri daşıdığını təsdiqləyir.



**İcma: Ermənistan öz mövqeyini ortaya qoymalıdır**

Yeri gəlmişkən, Qərbi Azərbaycan İcması son vaxtlar Ermənistanda və bir sıra digər ölkələrdə Azərbaycan-Ermənistan normallaşma prosesinə qarşı yönəlmiş təxribatçı addımları kəskin şəkildə pisləyib. İcmanın bununla bağlı yaydığı bəyanatda bildirilir ki, bu günlərdə - Azərbaycan və Ermənistan liderlərinin Əbu-Dabidə müsbət ruhda keçirilmiş görüşü günü Fransa parlamentinin Azərbaycan xalqına qarşı dəhşətli cinayətlər törətmiş müharibə canilərinin azad olunmasına çağıran qətnamə qəbul etməsi, İsveçrə parlamentinin üzvünün Ermənistanda özlərini hansısa qondarma qurumun “rəhbərləri” kimi qələmə verən şəxslərlə görüşməsi, “Qarabağ məsələsi hələ bağlanmamışdır” kimi təxribatçı açıqlamalar verməsi bu qəbildən olan təxribatçı hərəkətlərdir.

“Görəsən, “azadlıq, bərabərlik, qardaşlıq”dan dəm vuran Fransanın bu parlamenti niyə bircə dəfə bizim - Qərbi azərbaycanlıların üzləşdiyi faciələrə, deportasiyalara, soyqırımına, Azərbaycan xalqının Ermənistanda bütün izinin, qədim və zəngin tarixi-mədəni irsinin silinməsi kampaniyasına münasibət bildirməyib?”, - deyə sual edən Qərbi Azərbaycan İcması hesab edir ki, ilk növbədə, Ermənistan dövləti öz ərazisində artıq keçmişdə qalmış qondarma rejimin bütün “təsisatları”nı ləğv etməli, bundan başqa, regiondankənar aktorların sülhə maneə törədən əməllərini pisləyən açıqlamalar verməlidir.

**Qətnamə tamamilə qərəzli məzmuna malikdir**

Sözügedən qətnamə tamamilə qərəzli məzmuna malikdir. “Sənəddə” bəhs olunan şəxslər vaxtilə Azərbaycana qarşı dövləti cinayətlər törədiblər və onların əli dinc azərbaycanlıların qanına batıb. Keçmiş Dağlıq Qarabağ probleminin otuz ildən artıq davam edən tarixi boyunca Azərbaycan humanitar fəlakətlə üzləşib. Xocalı şəhəri bir gecənin içində yerlə-yeksan olub, bir milyondan artıq insan onilliklər boyunca məcburi köçkün həyatı yaşayıb. Həmçinin işğal altına düşən ərazilərdə qalan zəngin mədəni irsə böyük ziyan dəyib - onlar dağıdılıb, qiymətli eksponatlar oğurlanıb və s. Bütün bu qəbildən olan çirkin əməllərin arxasında isə Ermənistan hakimiyyəti və rəsmi İrəvanın onilliklər ərzində dəstəklədiyi separatçılar dayanıblar. Separatçılar Azərbaycan Konstitusiyasını pozmaqla Qarabağda qeyri-qanuni “dövlət” formalaşdırıblar və Azərbaycanın unitar dövlət quruluşuna qarşı çıxıblar. Onların cinayətləri ədalət məhkəməsində tam sübut olunub. Belə olan halda, Fransa parlamentinin məlum qətnaməsi yalnız birtərəfli və siyasi xarakterlidir.

Fransa bu mövzu ilə bağlı bir neçə dəfə “sənədlər” qəbul edib. Həmin şəxslər təkcə Azərbaycana qarşı deyil, bəşəriyyətə qarşı cinayətlər tördiblər. Təqsirləndirilən şəxslərin məhkəmə proseslərinə maneçilik törədilməsi cəhdləri ölkəmizin  suverenliyinə müdaxilə olmaqla yanaşı, dəhşətli qəddarlıqlara görə məsuliyyətin müəyyən edilməsi prosesini sarsıdır. Fransanın bu cür addımları cinayətkarları qorumaqla, cəzasızlığın davamına xidmət edir. Lakin bu niyyət baş tutmadı, çünki həmin cinayətkarların kökmü verilib!

Özünü “demokratiyanın beşiyi” kimi təqdim edən, ATƏT-in keçmiş Minsk qrupunun həmsədri olmuş bu ölkənin təcavüzkar Ermənistanı dost və müttəfiq hesab etməsi, Ermənistana dəstək göstərməsi ilk növbədə Fransanın özünə zərbədir. Məlumdur ki, həmsədr ölkə kimi Fransa heç vaxt ədalətli mövqe tutmayıb. Bütün dünya şahiddir ki, Ermənistan 30 il işğal altında saxladığı Azərbaycan torpaqlarında hansı vandalizmi törədib. Amma Fransa bir dəfə də olsun Ermənistanı işğalçı siyasətə son qoymağa çağırmayıb, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin yerinə yetirilməsini tələb etməyib. Əksinə, Azərbaycan 44 günlük Vətən müharibəsində torpaqlarını işğaldan azad etməklə Təhlükəsizlik Şurasının qətnamələrini icra edərkən Fransa açıq-aşkar Ermənistana dəstək verib. Demək olar ki, bu dövrdə Fransa gerçək simasını nümayiş etdirdi. İndiki şəraitdə də Fransanın bu mövqeyi, parlamentin qəbul etdiyi qətnamə regionumuzda sülh prosesinə ziyan vurur. Eyni zamanda, beynəlxalq hüquqa hörmətsizliyin nümayişi olan bu sənədi qəbul etməklə Fransa gerçək simasını nümayiş etdirir.

**Fransa  neokolonial siyasətindən əl çəkməlidir**

30 il ərzində Ermənistanın işğalçı siyasətinin nəticələrinə biganə qalan Fransa indi öz ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş Azərbaycan haqqında əsassız olaraq dezinformasiya yayması qəbulolunmazdır. Rəsmi İrəvanın da Qarabağın Azərbaycan ərazisi olduğunu etiraf etdiyi halda, Paris mütəmadi olaraq reallıqları təhrif etmək üçün cəhdləri təəssüf doğurur.

Fransa Cənubi Qafqaz ölkələrinin daxili  işlərinə qarışmaq əvəzinə, təkcə Azərbaycan deyil, müxtəlif dövlətlər tərəfindən böyük tənqidlərə məruz qalan, xüsusən də dənizaşırı ərazilərində və Afrikada həyata keçirdiyi neokolonial siyasətindən əl çəkməlidir. Fransız neokolonializmi yerli əhalini və resurslarını istismar etməklə bərabər, həmişə fransız maraqlarını həmin dövlətlərin rifahından üstün tutub, habelə uzunmüddətli qeyri-sabitlik və etnik gərginlik yaradıb. Heç kimə sirr deyil ki, Fransanın xarici siyasəti onun qondarma “sivilizasiya missiyası”nın mənəvi cəhətdən iflasa uğradığını nümayiş etdirir. Bir sözlə, Paris sülhə xidmət etməyən və regionda sabitliyə xələl gətirən addımlara son qoymalıdır!

# Ermənistan sülhə sadiqdirsə...

## Keçmiş qondarma rejimlə bağlı məhkəmə qərarı ləğv olunmalıdır!

Ermənistan 30 ilə yaxın müddət ərzindəki işğal siyasətində azərbaycanlılara qarşı çoxsaylı cinayətlər törədib. Hərbi və müharibə cinayətlərinin bəşəriyyətə qarşı yönəlməsinə baxmayaraq, beynəlxalq birlik ermənilərin cinayətlərinə qarşı susqunluq nümayiş etdirib. Halbuki Azərbaycan bu cinayətlər barədə beynəlxaq ictimaiyyəti daim məlumatlandırıb. Dünya birliyi Ermənistanın işğalçılıq siyasəti ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin icrası üçün heç bir addım atmadı, həmin sənədlər 27 il kağız üzərində qaldı. Belə olan halda, dövlətimiz BMT Nizamnaməsinə uyğun olaraq öz ərazi bütövlüyünü bərpa etdi. 2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsi nəticəsində Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz torpaqlarımızı erməni işğalından azad etdi. 2023-cü ilin sentyabrında isə Qarabağda keçirilən antiterror tədbirləri nəticəsində erməni separatçılarının kökü kəsildi.

### Hərbi cinayətkarlar layiqli cəzalarını aldılar

Azərbaycan o ölkələrdəndir ki, həm öz ərazi bütövlüyünü və tam suverenliyini öz gücü ilə, heç bir yerdən yardım almadan, bütün təzyiqləri dəf edərək bərpa etdi, həm də müharibə cinayətlərini törətməkdə ittiham olunan şəxslərin mühakiməsinə nail oldu. Azərbaycan öz gücü və qətiyyəti hesabına vətəndaşlarına münasibətdə ədaləti təmin etdi. Belə ki, Qarabağda antiterror tədbirlərindən sonra separatçı rejimin rəhbərliyində olmuş ermənilər, torpaqlarımızın işğalında iştirak edən yüksək rütbəli hərbçilər həbs olunaraq ədalət mühakiməsinə çıxarıldılar.  Məhkəmə tərəfindən onlara hökm oxunub.

Lakin xaricdəki müəyyən ermənipərəst dairələr, erməni lobbisi ədalət mühakiməsini beynəlxalq ictimaiyyətə yanlış təqdim etməyə çalışırlar. Bundan əlavə, Ermənistan məhkəməsinin keçmiş qondarma rejimin buraxılması haqqında Samvel Şahramanyanın imzaladığı qərarın “hüquqi qüvvəyə malik olmaması” haqqında verdiyi hökm qətiyyən qəbulolunmazdır. Bununla bağlı, Qərbi Azərbaycan İcması ABŞ Prezidenti Donald Trampın iştirakı ilə 2025-ci il avqustun 8-də Vaşinqtonda keçirilmiş tarixi zirvə görüşündən sonra Azərbaycan-Ermənistan normallaşma prosesində müşahidə olunan müsbət dinamikaya, Azərbaycan və Ermənistan liderlərinin bu günlərdə Əbu-Dabidə keçirilmiş görüşün ruhuna zidd olaraq, Ermənistanda və ondan kənarda sülhə qarşı yönəlmiş bir sıra cəhdlərlə bağlı narahatlığını ifadə edib.

### İcma: Bu, sülhə qarşı qərardır

İcmanın bəyanatında deyilir: “Bu xüsusda, Ermənistanda məhkəmənin Samvel Şahramanyan adlı şəxsin qondarma qurumun “özünü buraxması barədə qərarı”nın güc tətbiqi və ya təhdid altında verilməsi və buna görə də, hüquqi qüvvəyə malik olmaması barədə təxribatçı qərarını hiddətlə qarşılayırıq. Bu məhkəmə qərarı açıq-aşkar Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə qarşı yönəlmişdir. Ermənistan məhkəməsi hansı əsasla, hansı mandatla suveren bir dövlətin daxili işlərinə qarışır?”.



Qərbi Azərbaycan İcması bu məhkəmə qərarını, həm də bu il parlament seçkilərinin keçiriləcəyi Ermənistanda revanşistlərin sülhə qarşı fəaliyyəti kimi qiymətləndirib. “Əgər Ermənistan məhkəməsi iki xalq arasında sülhə, barışığa töhfə vermək əzmindədirsə, onda biz Qərbi azərbaycanlıların öz dədə-baba yurdlarından deportasiya olunmasını, qəbiristanlıqların, məscidlərin dağıdılmasını pisləyən məhkəmə qərarları çıxarmalıdır”.

Azərbaycanın seçdiyi yolda yalnız ərazi bütövlüyünün bərpası deyil, eyni zamanda, ədalətin təmin edilməsi dayanır. Cinayətin cəzasız qalmaması prinsipi Azərbaycanın münaqişəyə baxışının əsasını təşkil edir və bu model beynəlxalq humanitar hüququn fundamental tələbləri ilə tam uzlaşır. Məhz bu yanaşma sayəsində müharibə və insanlıq əleyhinə cinayətlərin hüquqi müstəvidə araşdırılması mümkün oldu.

Açıq və şəffaf keçirilən məhkəmə prosesi zamanı təqdim olunan faktiki sübutlar, arxiv materialları, zərərçəkmiş şəxslərin ifadələri və təqsirləndirilənlərin etirafları Ermənistan dövlətinin işğal siyasətində birbaşa rolunu üzə çıxardı. Məsələn, məhkəmədə dindirilən Lyova Mnatsakanyan açıq şəkildə bildirdi ki, tarixdə qalmış qondarma rejimin silahlı qüvvələri müstəqil struktur olmayıb, faktiki olaraq Ermənistan ordusunun ən iri hərbi birləşmələrindən biri kimi fəaliyyət göstərib. O etiraf etdi ki, qondarma rejimin “ordusunda” yüksək vəzifələrə təyinatlar İrəvanda təsdiqlənir, silah-sursat, maliyyə və canlı qüvvə ilə təminat isə Ermənistan ordusunun daxili strukturları vasitəsilə həyata keçirilirdi.

### Ermənistan məhkəməsinin qərarı ləğv olunmalıdır

2025-ci il aprelin 28-də Bakı Hərbi Məhkəməsində davam etdirilən məhkəmə prosesində Bako Sahakyan Ermənistan silahlı qüvvələrinin Şuşa rayonunu işğal etməsi zamanı əməliyyatda iştirak etdiyini təsdiqləyib. Məhkəmə prosesində belə faktların sayını kifayət qədər göstərmək olar.

Bəlkə də, Ermənistan məhkəməsi bu saxta qərarı Azərbaycan məhkəməsi tərəfindən erməni cinayətkarlara qarşı çıxardığı hökmlərə “cavab” olaraq qəbul edib. Amma nəzərə almaq lazımdır ki, Azərbaycan tərəfinin addımı beynəlxalq hüquqa tam uyğundur və ədalətlidir. Lakin Ermənistan isə öz qərarı ilə qanunsuz mövcud olmuş separatçı rejimə “hüquqi don” geyindirməyə çalışıb. Əlbəttə, Ermənistan məhkəməsinin qərarı kağız parçasından başqa bir şeyil. Ən azı Qarabağda separatçıların kökü tamamilə kəsilib. Digər tərəfdən isə bu qərar rəsmi İrəvanın sülhə sadiqliyini şübhə altına alır. Ona görə də, Ermənistan məhkəməsinin sözügedən qərarı ilk növbədə, bu ölkənin zərərinədir. Bu səbəbdən, həmin qərar ləğv olunmalıdır.

*Nardar BAYRAMLI*

# Neftin qiymətlərini kim və necə təyin edir?

Fevral ayının ilk ongünlüyü dünya bazarlarında gosiyasi gərginliyin davam etməsi və risk aktivlərində dalğalanmanın artması ilə xarakterizə oluna bilər. ABŞ, Avrozona, Almaniya və İngiltərədə maliyyə və digər aktivlərdə ucuzlaşmaların müşahidə edilməsi enerji sektoruna da sirayət edib. Xüsusilə də, qlobal bazarın əsas istehlak karbohidrogeni olan neftin bir neçə gün cüzi qiymət artımından sonra yenidən ucuzlaşma müşayiət olunur. Ötən gün "ICE London" qitələrarası birjasında keçirilən ticarət əməliyyatlarında "Brent" neftinin 1 bareli təxminən 1 faiz ucuzlaşaraq 67,4 dollara satılıb. Nyu-Yorkun "NYMEX" əmtəə birjasında isə "WTI" markalı neftin 1 barelinin qiyməti 0,94 faiz azalaraq 62,9 dollara bərabər olub. "Azeri Light" markalı Azərbaycan nefti isə 70 dollardan satılıb.

## Geosiyasi amillər bazara təsir edir

Dünya bazarında neftin qiyməti daha çox geosiyasi proseslərin təzyiqi altında formalaşmaqdadır. ABŞ və Avropa İttifaqının Rusiyaya qarşı tətbiq etdikləri növbəti sanksiyalar paketindən sonra dünya bazarında neftin qiymətində bahalaşma müşahidə edilsə də, bu, müvəqqəti bazar konyukturası oldu. İlk baxışdan neftin qiymətinin bahalaşmasının bazarın tələb və təklif qanunlarına uyğun olaraq baş verdiyi təsəvvürü yaransa da, dünya bazarında qiymətin təbii amillərdən qaynaqlanmadığı bəlli oldu. Belə ki, analitiklər hasilatın azalması, nəqliyyat xərclərinin artması, OPEC-in neftin qiymətini sabit saxlamaq istəyi və s. amillərin neftin qiymətində həlledici rol oynamadığını etiraf edirlər. Qənaətlərə əsasən, bazara süni müdaxilələr dəyişkənliklər yaradır və bu, siyasi xarakter daşıyır.

Son bir həftədə isə ABŞ-İran münasibətləri neftin qiymət dalğalanmalarına daha çox təsir edib. "Finam" investisiya kompaniyasının analitiki Nikolay Dudçenkonun fikrincə, hazırkı dönəmdə hərbi münaqişə nə ABŞ-a, nə də İrana lazım deyil. Məsələnin mahiyyəti ondan ibarətdir ki, seçkilər ərəfəsində "İran problemini" həll edəcəyini bəyan edən Prezident Donald Tramp irəli sürdüyü şərtlərin İran tərəfindən qəbul ediləcəyini bildirib. Ona görə də Yaxın Şərq ölkələrindəki hərbi bazaları hərbi texnika və şəxsi heyətlə təchiz edərək danışıqlara başlamaqla İrana təzyiq göstərməyə çalışır ki, istədiyini əldə etsin. Noyabr ayında ABŞ-da Senata seçkilər keçiriləcək buna görə də Tramp hərbi əməliyyatlar aparmaq niyyətində deyil. Digər tərəfdən hərbi əməliyyatlar neftin qiymətinin artmasına səbəb olacaq ki, bu da ABŞ-ın iqtisadi maraqlarına cavab vermir. N.Dudçenko bildirib ki, qiymətlər geosiyasi təsir altında qalaraq bu il "Brent"in qiyməti 63-65 dollar ətrafında olacaq. Niderlandın "İNG Bank" qrupunun təhlilinə görə isə cari ildə "Brent" markalı neftin qiyməti 57 dollar, 2027-ci ildə isə 62 dollar ətrafında olacaq.

Yeri gəlmişkən, fevralın 6-da Omanda nəzərdə tutulan ABŞ-İran görüşünün təxirə salınmasından sonra gərginlik gözləntisində olan treyderlər hərbi münaqişə ehtimalının azaldığını görərək alışları artırıblar ki, bu da qiymətlərin enməsində rol oynayıb. Ancaq buna baxmayaraq, Tehran hökumətinin raket proqramını və Yaxın Şərq dövlətlərində fəaliyyət göstərən proksi qrupların ləğv etməyəcəyini bildirməsi bazardakı sakitliyin müvəffəqəti qaldığını, yeni risk siqnallarının yaranacağını ehtimal edir.



## Yeni yataqlar və hasilatın artırılması zəruridir

"Reuters" agentliyinin məlumatına əsasən, dekabrda ABŞ Venesueladan sutkada 498 min barel neft çıxarırdısa yanvarda bu rəqəm 800 min barelə çatıb ki, bu da dünya bazarında təklifi artırıb və bahalaşmanın qarşısı nisbətən alınıb. Lakin yaxın gələcəkdə Venesueladan daha çox həcmdə neft çıxarılması planlaşdırılıb. Agentliyin analitikləri hesab edirlər ki, bazar hələ də geosiyasi təsirlərin altında fəaliyyətini davam edir.

ABŞ-ın "Shell" şirkətinin rəhbəri Vael Savan nəzərə çatdırıb ki, yataqların durmadan istismarı hər il təklifin 5 faiz azalmasına səbəb olur. Bunu kompensasiya etmək üçün ildə bazara 6 milyon barel neft çıxarmaq lazımdır. Təklifin qısamüddətli artması hazırda dünyada baş verən geosiyasi proseslərlə əlaqədardır. Venesuela və İran ətrafında baş verən hadisələr qiymətlərin sabit qalmasını təmin edir. "Shell" rəhbəri vurğulayıb ki, qarşıdakı illərdə dünya bazarının neftə olan tələbatı artacaq. Bir sıra ölkələrin iqtisadi inkişafında yeni mərhələnin başlaması dünyada sutkada 1 milyon barel neftə tələbat yaradacaq. Ona görə də, yeni yataqların kəşf edilməsi vacibdir və dünya bazarında neftin qiymətinin sabit qalması üçün zəruridir. Şirkət Livanda, Küvetdə, Venesuela və İraqda yeni yataqların kəşf edilməsi və hasilatın artırılması istiqamətində işlər aparır.

## Türkiyə ABŞ-la neft kəşfiyyatına başlayır

Qlobal neft bazarında fərqli fraqmentasiyaların davam etdiyi bir vaxtda Türkiyənin "Turkish Petroleum Corporation" (TPAO) şirkəti ilə ABŞ-ın "Chevron" şirkəti arasında neft kəşfiyyatı və hasilatı sahəsində əməkdaşlıq haqqında memorandum imzalanıb. Türkiyənin enerji naziri Alparslan Bayrakdar bildirib ki, hər iki şirkət Türkiyə ilə yanaşı, beynəlxalq layihələrin də birgə həyata keçirilməsi istiqamətində əməkdaşlıq edəcəklər. Nazir bildirib ki, Türkiyənin məqsədi Qara dənizdə hasilata başlamaq və TPAO-nu dünya miqyaslı şirkətə çevirməkdən ibarətdir. Bu memorandum ilk növbədə Türkiyənin ABŞ ilə əlaqələrinin və enerji sahəsini inkişaf etdirməyə çalışdığını göstərir. Yanvar ayında TPAO ABŞ-ın "ExxonMobil" şirkəti ilə də müqavilə imzalayıb. Müqaviləyə əsasən şirkətlər Qara və Aralıq dənizlərində, həmçinin İraq, Rusiya və Somalidə birgə layihələr həyata keçirəcəklər.

"Bloomberg" yazır ki, Türkiyə karbohidrogen resurslarına ehtiyac duyan dövlətlərdən biridir və Amerika ilə enerji sahəsində əməkdaşlıq onun bu problemini həll edə bilər.

## "OPEC" optimal qiyməti 70 dollar hesab edir

Analitiklərin fikrincə, ABŞ-nin qlobal bazara daha çox karbohidrogen ehtiyatları nəql etməsi barədə proqnozları da özünü doğrultmur. Bu ölkədə ehtiyatların azalması dünya neft bazarında əvvəlki həcmlərdə yanacaq ixracını təmin etməyə imkan vermir, hazırda bu ölkə qlobal tədarükü maksimum səviyyədə çatdırmağa çalışsa da, ehtiyat rezervlərin davamlılığının rentabelli olacağı sual altındadır.

Beynəlxalq Enerji Agentliyinin (IEA) gözləntilərinə görə, dünya iqtisadiyyatında yavaşlama neftə olan tələbin azalmasını təşviq edəcək. Buna səbəb kimi qlobal iqtisadi fəallığın azalması, o cümlədən ABŞ və Avropa İttifaqında sənaye və enerji sektorunda işgüzarlığın zəifləməsi, qlobal bazarın ən nəhəng istehlakçısı olan Çində gözlənilləndən daha az xam neft tələbinin qeydə alınması, bərpa olunan enerjiyə keçidin sürətlənməsi də digər faktorlar təsir göstərilir. Bu isə orta qiymət əmsalının 60-65 dollar çərçivəsində qalmasına səbəb olacaq.

Bu meyilləri nəzərə alan "OPEC+" və "OPEC" üzvləri bazardakı nəql kvotasını nəzarətdə saxlamağı məqsədəuyğun saymır. Kartel ölkələrinin enerji analitikləri hesab edirlər ki, dünya iqtisadiyyatında cüzi artım faizinə və sənayenin ehtiyaclarına uyğun neft tədarükün cəlb edilməsi vacibdir. Ümumilikdə, "OPEC" ölkələri qlobal bazar üçün optimal qiymətin indiki şəraitdə 70 dollar olmasını sərfəli hesab edir.

Bütün bu proseslər dünya bazarında neftin qiymətinə mühüm təsir göstərəcək. Məsələnin mahiyyəti ondan ibarətdir ki, bu təsir iqtisadi xarakter daşıyaraq bazarın tələb və təklif qanunları ilə tənzimlənəcək. Lakin bu gün bazara iqtisadi faktorlardan çox geosiyasi faktorlar təsir edir ki, bu da bir sıra dövlətlərin iqtisadi inkişafına maneələr törədir, bazarın qeyri-müəyyən istiqamətə fəaliyyəti sərmayədarları ehtiyatlı davranmağa, investisiya yatırmaqdan çəkinmək məcburiyyətində qoyur.

**E.CƏFƏRLİ**

**İkinci raund baş tuta bilər**

# Omanda razılıq əldə edilmədi...

## ABŞ-İran danışıqlarının birinci mərhələsi gərgin keçib

Uzun müddət idi ki, gözlənilən görüş baş tutdu - ABŞ və İran İslam Respublikası arasında nüvə proqramı ilə bağlı dolayı danışıqların birinci mərhələsi Omanın Məskat şəhərində keçirilib. Danışıqlardan sonra Tehran nəticələrlə bağlı mülayim nikbinlik ifadə edib - "Bu, yaxşı başlanğıcdır", - deyə İranın xarici işlər naziri Abbas Əraqçi bildirib. Deyib ki, "etibarsızlıq divarı aşılmalıdır". İran xarici işlər naziri Tehran və Vaşinqton arasında danışıqların ikinci raundunun nə vaxt davam etdiriləcəyi ilə bağlı fikir bildirməyib. Əraqçinin sözlərinə görə, hər iki ölkənin nümayəndə heyətləri məsləhətləşmələr üçün paytaxtlarına qayıdacaqlar. "Axios" isə adı açıqlanmayan mənbəyə istinadən bildirib ki, növbəti görüş yaxın günlərdə baş tuta bilər.

Omanın xarici işlər naziri Bədr əl-Busaidi danışıqları "çox ciddi" adlandırıb. Diplomat "X" mikrobloq saytında yazıb ki, hər iki ölkənin nümayəndə heyətləri ilə ayrıca görüş keçirilib. "Həm İran, həm də Amerikanın baxışlarını aydınlaşdırmaq və mümkün irəliləyiş sahələrini müəyyən etmək üçün bu görüşlər faydalı olub", - deyə o, bildirib.

**Qapalı görüş...**

Xarici mətbuatın yazdığına görə, Məskatda keçirilən danışıqlar gərgin münasibətlər fonunda baş tutub. Görüşdə ABŞ-ı Trampın xüsusi elçiləri Stiv Vitkoff və Cared Kuşner təmsil edib. İran nümayəndə heyətinə isə xarici işlər naziri Abbas Əraqçi rəhbərlik edib. Məsləhətləşmə prosesi dolayı yolla aparılıb. Omanın xarici işlər naziri Bədr əl-Busaidi nümayəndə heyətləri arasında vasitəçi kimi çıxış edərək hər iki tərəflə bir neçə iclas keçirib. "Əl-Cəzirə"nin məlumatına görə, Əraqçi omanlı həmkarına Tehranın yanvar ayının birinci yarısında İranda küçə etirazlarının sərt şəkildə yatırılmasından sonra Vaşinqtonla münasibətlərdə yaranan problemlərin həlli ilə bağlı planı təqdim edib. Daha sonra bu sənəd Amerika nümayəndə heyətinə təqdim olunub. Amerikalılar, həmçinin vasitəçilərə vəziyyətlə bağlı öz mövqelərini təqdim ediblər. Görüşün ilk saatlarında Oman Xarici İşlər Nazirliyi sosial mediada bu təmasların "diplomatik və texniki danışıqların bərpası üçün lazımi şəraitin yaradılmasına yönəldiyini" elan edib.





Keçirilən danışıqlar çərçivəsində ABŞ Prezidenti Donald Trampın müşavirləri Stiv Uitkoff və Cared Kuşner ilə İranın xarici işlər naziri Abbas Əraqçi arasında qapalı görüş də baş tutub. Görüş zamanı müzakirə edilən məsələlər açıqlanmayıb.

**ABŞ-ın tələbləri...**

Görüşün nəticələri ilə bağlı yayılan xəbərlərdə bildirilir ki, Tehran iştirakçıların yalnız iki mövzuya diqqət yetirməli olduğu qənaətindədir: İranın nüvə proqramı və mümkün sanksiyaların aradan qaldırılması. Vaşinqton isə digər məsələlərin də müzakirə edilməli olduğuna israr edir: İslam Respublikasının raket proqramı və İranın regiondakı müttəfiqlərinə, o cümlədən radikal islamçı HƏMAS hərəkatına, Livanın radikal şiə hərəkatına Hizbullaha və Yəməndəki Husi üsyançılarına dəstəyi.

Vurğulayaq ki, ABŞ ilin əvvəlindən bəri öz hərbi bazalarını və Vaşinqtonun müttəfiqlərini potensial İran hücumlarından qorumaq üçün regiondakı hərbi mövcudluğunu əhəmiyyətli dərəcədə genişləndirib. ABŞ Prezidenti Donald Tramp dəfələrlə Tehranı hərbi əməliyyatlarla hədələyib. İran isə cavab olaraq bildirib ki, İrana qarşı hücum ediləcəyi təqdirdə ABŞ hərbi bazaları yerləşən Körfəz Ərəb dövlətlərinə zərbə endiriləcək.

**Vaşinqtonun "B" planı...**

"Əl-Cəzirə" telekanalının məlumatına görə, dialoqa vasitəçilik edən və regionda yeni tammiqyaslı müharibədən çəkinən Yaxın Şərq ölkələri kompromis variantlar təklif ediblər: İranın uran zənginləşdirilməsini simvolik olaraq 1,5 faiz səviyyəsinə qədər məhdudlaşdırmaq, Tehrandan ballistik raket arsenalından istifadə etməmək barədə rəsmi öhdəlik almaq və İranı ABŞ ilə müqavilə imzalamağa inandırmaq. Adı çəkilməyən Yaxın Şərq rəsmiləri "The New York Times" qəzetinə bildiriblər ki, İranın ABŞ-ın tələblərinə tam razı ola biləcəyi inandırıcı deyil. Qəzet yazır ki, Tehranın regional rəqibi İsraili çəkindirmək üçün ballistik raket ehtiyatına ehtiyacı var. İran rəsmilərinin fikrincə, bundan imtina etmək özünü müdafiədən məhrum etmək deməkdir.

"The National" yazır ki, Ağ Ev artıq alternativ İran hökuməti yaratmağa başlayıb. Mənbələrə görə, bu həftə sonu Prezident Trampın şəxsi iqamətgahı olan Mar-a-Laqonun yaxınlığındakı Palm Biçdə mühacirətdə yaşayan nüfuzlu İran müxalifət xadimlərinin görüşü planlaşdırılır. Gündəm İranın ali lideri Əli Xameneinin rəhbərlik etdiyi mövcud sistemin dağılması halında İrana nəzarəti ələ keçirə biləcək keçid hakimiyyətinin yaradılması məsələsinə yönəlib.

Qəzetin yazdığına görə, Oman danışıqlarından əvvəl, fevralın 6-da gecə saatlarında ABŞ Dövlət Departamentinin İrandakı Amerika vətəndaşlarına müraciəti də bu səbəbdən qaynaqlanır. Xatırladaq ki, Dövlət Departamenti müraciətində ABŞ vətəndaşlarına xitabən "İranı dərhal tərk edin" deyə bildirmişdi. Dövlət Departamenti İrandakı uçuşların əvvəlcədən xəbərdarlıq edilmədən ləğv oluna biləcəyi ehtimalını irəli sürüb.

**Trampın yeni sərəncamı...**

Bundan başqa, ABŞ prezidenti Donald Tramp ABŞ-a İrandan mal və ya xidmət idxal edən ölkələrdən gələn mallara əlavə tariflər tətbiq etməyə imkan verən sərəncam imzalayıb. Sərəncam Ağ Ev tərəfindən yayılıb.

Sənədə görə, "İrandan mal və ya xidmət birbaşa və ya dolayı yolla alan, idxal edən və ya başqa şəkildə alan istənilən ölkədən ABŞ-a idxal edilən mallara 25 faiz əlavə advalor rüsumlar tətbiq edilə bilər".

Bu tədbirlər 7 fevralda qüvvəyə minib. Sənəddə qeyd olunur ki, Vaşinqton administrasiyası İrana qarşı digər iqtisadi tədbirləri əsaslandırmaq üçün ABŞ-da əvvəllər rəsmi olaraq elan edilmiş fövqəladə vəziyyətin uzadılmasını zəruri hesab edir. Sərəncamda İranın siyasətinin ABŞ üçün "qeyri-adi və fövqəladə bir təhlükə yaratmağa davam etdiyi" vurğulanır.

**"B-52"-lər Al Udeid Air Base aviabazasındadır**

ABŞ Yaxın Şərqdə artan gərginlik və İranla aparılan diplomatik təmaslar fonunda diqqətçəkən hərbi addımlar da atır. İsrailin Israel Hayom nəşrinin məlumatına görə, Ağ Evin ərəbdilli rəsmi hesabı ABŞ Hərbi Hava Qüvvələrinə məxsus B-52 Stratofortress strateji bombardmançı təyyarələrindən ibarət qrupun Qatar ərazisində yerləşən Al Udeid Air Base aviabazasına çatdığını rəsmi şəkildə təsdiqləyib.

Məlumata görə, bu hərbi yerləşdirmə regionda təhlükəsizlik risklərinin kəskin artdığı bir dövrə təsadüf edib. Xüsusilə də ötən cümə günü ABŞ və İran nümayəndələri arasında baş tutan diplomatik danışıqlar fonunda bu addım Vaşinqtonun "iki xəttli" strateji kimi qiymətləndirilir: bir tərəfdən diplomatik dialoq, digər tərəfdən isə açıq güc nümayişi.

Hərbi ekspertlərin fikrincə, B-52 bombardmançılarının Qətərdə yerləşdirilməsi təkcə İran üçün deyil, bütövlükdə Yaxın Şərqdəki aktorlar üçün strateji mesaj xarakteri daşıyır və mümkün eskalasiyaların qarşısını almağa yönəlmiş preventiv təzyiq aləti kimi istifadə olunur.

**SADİQ**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**



# Susmayan qələm, oyadan söz!

## Cəlil Məmmədquluzadə zamanını qabaqlayan yazıçı idi...





*Yeganə BAYRAMOVA*

Cəlil Məmmədquluzadə təkcə ədəbiyyat tariximizin klassiki deyil. O, zamanını qabaqlayan, cəmiyyətin ağrılı yerlərinə toxunmaqdan çəkinməyən, qələmi ilə insanları oyadan bir maarifçi idi. Onun üçün ədəbiyyat bəzəkli cümlələr toplusu yox, insanı silkələyən, düşündürən, bəzən də narahat edən güc idi. Yazmağı, dövrünün eybəcərliklərini qələmə almağı çox istəyirdi, bacarırdı da. Amma onun da əmmaları çox idi. Başa düşürdü ki, yazdıqlarını hər kəs anlamayacaq, başa düşürdü ki, yazdıqlarına görə, düşmənləri və sevməyənləri olacaq. Amma vicdanı susmasına imkan vermirdi...

Redaktorluq etdiyi “Molla Nəsrəddin” jurnalı da xalqla, xalqın həyatı ilə, onun arzuları ilə sıx bağlı idi. Mirzə Cəlil həyatı boyu xalqımızın xoşbəxtliyi uğrunda mübarizə aparıb. Onun felyetonları, hekayə və şeirləri ayrı-ayrı şəxslərin deyil, bütöv bir xalqın taleyindən, gələcəyindən bəhs edir. Yaradıcılığı, əsərləri, publisistikası ilə xalqımızın milli dirçəlişində əvəzsiz rol oynayıb. Azərbaycan ədəbiyyatına nəzər saldıqda, “Danabaş kəndinin əhvalatları”, “Piverdinin xoruzu”, “Ölülər” deyilən zaman adını çəkməsən belə hamı bu əsərlərin müəllifini tanıyır. Çünki Mirzə Cəlili tanımamaq mümkün deyil.

Yazıçılığa 1887-ci ildə “Çay dəstgahı” adlı mənzum alleqorik pyesi ilə qədəm qoymuşdu. Sonra “Kişmiş oyunu” hekayəsini qələmə alır, 1894-cü ildə isə ilk iri həcmli, sanballı nəsr əsəri “Danabaş kəndinin əhvalatları” povestini yazmağa başlayır. O illərdə Qafqaz müsəlmanlarının sosial-mədəni tərəqqisi üçün hərə bir yol göstərirdi: islam dinində islahat aparmaq; mətbuatı inkişaf etdirmək; ərəb əlifbasını yeni, daha asan əlifba ilə əvəz etmək və s. M.Şahtaxtlı, V.Radlox, İ.Qaspriniski, Ə.Ağaoğlu, S.Mehmandarov kimi alim və publisistlərlə bərabər Mirzə Cəlil də bu işə qoşulub, yeni bir əlifba layihəsi düzəltmişdi. 1895-ci ildə o, bu layihəni aparıb Peterburqda “Novoye vremya” qəzetinin redaktoru A.Suvorinlə məsləhətləşir. Bütün başqa təkliflər kimi onun da təklifi həyata keçirilməmiş qalır.

1898-1901-ci illərdə Naxçıvan və İrəvanda inzibati idarələrdə məmur işləyən Mirzə Cəlil Vətənin görkəmli ziyalıları E.Sultanov, M.Sidqi, P.Sultanov və M.Kəngərli ilə tanış olub dostluq edir. O, əvvəlki kimi yenə kəndlərdə, el arasında çox olur, çarizmin yerlərdəki qəddar siyasətinin yaxından şahidi olub xalqın vəziyyətinə bərk acıyır. Həmvətənlərinə qəhmər çıxıb kömək etmək məqsədi ilə onlar üçün ərizələr yazır, məhkəmədə vəkillik edir.

Bu gün ədəbiyyatımızın görkəmli nümayəndəsi Cəlil Məmmədquluzadənin anadan olmasının 157-ci ildönümü tamam olur. O, 1869-cu il fevralın 10-da Naxçıvanda dünyaya göz açıb. Naxçıvanda Quran dərsinə getməsi, Qori Müəllimlər Seminariyasında yaşadığı hər anı bütün əsərlərində öz əksini tapıb. Mirzə Cəlil ömrünü gənclərin maariflənməsinə həsr edib. Çünki o cəhaləti görürdü, dilinə gətirəndə isə maneələr və təhdidlərlə qarşılaşırdı.

Əsərlərində hər təbəqəyə toxunan Mirzə deyirdi ki, onun bütün həyatı boyu yeganə mübarizəsi Şərq qadınının problemlərini gündəmə gətirməkdir. Şərq qadınının problemləri isə, onun azadlığa çıxmasıdır, qara çarşabdan çıxması, müsəlmanın zəncirindən xilas olması, şəriətin kəməndindən, hərəmxanaların zindanından qurtulmasıdır. Mirzə siğəni əxlaqa zidd hesab etdiyi üçün hədələnirdi də... Ancaq hədə-qorxular, tənqidlər onu yolundan döndərmirdi. Məsələn “Ölülər”-də kefli İsgəndərin dilindən dövrün cəhalətini insanlara çatdırırdı. “Ölülər” Mirzənin şah əsəri idi. Onun dövründəki cəhaləti görmək üçün sadəcə “Ölüləri” oxumaq kifayət edir.

Mirzə Cəlil, eyni zamanda, “Molla Nəsrəddin” ədəbi məktəbinin yaradıcısıdır. Redaktoru olduğu “Molla Nəsrəddin” jurnalı ilə Azərbaycan ədəbiyyatı və mətbuatında, o cümlədən pedaqoji fikir tariximizdə, həqiqətən yeni bir dövr açdı. “Molla Nəsrəddin” jurnalı nəşrə başladığı ilk günlərdən həm böyüyən yeni nəslin, gənclərin, həm də yaşlıların təlim-tərbiyəsi məsələləri ilə ciddi məşğul oldu. Xalqın mədəniyyətinin inkişafını, milli şüurunun oyanmasını, müasir tədris ocaqlarının yaradılmasını və burada dərs deyən əsl xalq müəllimlərinin hazırlanmasını Cəlil Məmmədquluzadə və ya “Molla Nəsrəddin” jurnalı təkidlə tələb edirdi. Cəlil Məmmədquluzadə bu ideya, bu amal uğrunda mübarizə aparırdı.

Prezident İlham Əliyevin “Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında” 2019-cu il 17 yanvar tarixli Sərəncamına əsasən görkəmli yazıçı və ictimai xadimin yubileyi geniş qeyd olunub. Bu Sərəncam böyük demokrat Cəlil Məmmədquluzadənin yaradıcılığına olan sevgi və məhəbbəti göstərir. Bütün bunlar həm də onu göstərir ki, Azərbaycan var olduqca Cəlil Məmmədquluzadə irsi də yaşayacaq və var olacaq.

# Ümid, bərəkət və oyanış rəmzi...

## Xıdır Nəbi bayramı haqqında nə bilirik?

Xalqımızın mənəvi yaddaşında dərin iz buraxmış qədim inanclardan biri də Xıdır Nəbi bayramıdır. Türksoylu xalqların mifik düşüncəsində bu bayram təbiətin oyanışını müjdələyən, yazın, yaşıllığın səbirsizliklə gözlənilməsini tərənnüm edən, bolluq, bərəkət, firavanlıq inanclarının rəmzidir. Bayram tarixən kiçik çillənin hökm sürdüyü ərəfədə, təqribən fevralın 9-11-ci günlərində keçirilir.

Xıdır Nəbi bayramının başlıca iştirakçısı olan Xıdır və ya Xızır keçmiş türk mifoloji təsəvvürlərində ölüb-dirilən, zülmət dünyasından əbədi həyat bəxş edən dirilik suyunu tapıb içən və ölməzlik qazanan bir obrazı simvolizə edir. Xızır türk mifik qaynaqlarında Yer, Su, Umay kimi bir vəli (övliya), yaxud hami ruh statusuna malik varlıq kimi səciyyələndirilir. Xızır və onunla bağlı inanclar Orta əsrlərdən başlayaraq istər türk, istərsə də Avropa və digər xalqların elmi tədqiqatçılarının diqqət mərkəzində olub.

Bayramın mifik rəmzi olan Xıdır, yaxud Xızır barədə islam qaynaqlarında müxtəlif mülahizələr söylənir. Bəzi mənbələrə görə, hətta Xızırın məzarının bir neçə yerdə olması, yaxud onun əbədiyaşar şəxsiyyəti haqqında fikirlərə də rast gəlmək mümkündür. Bu obraz xalq tərəfindən sevilib və onun haqqında müxtəlif əfsanələr, rəvayətlər dolaşıb.

### Əsas atributlarından biri qovutdur

İnama görə, “əgər hər hansı bir evdə həmin gün süfrə açılmazsa, Xıdır küsüb gedəcək, baharın gəlişini yubadacaqdır”. Mərasimin əsas atributlarından biri qovutdur, buğda qovrulub qovut çəkilir və süfrəyə qoyulur. Erkən etiqadlara görə, Xıdır əlini qovuta çəkir, bununla da Yer üzünə özü ilə bolluq, bərəkət, xoşbəxtlik gətirir. Xıdır Nəbi mərasiminin əsas amalı insanların qışdan salamat çıxmasını, üzləşdikləri çətinliklərə sinə gərməsini, yazın gəlişini gözləməsini əks etdirməkdir.

Xıdır Nəbi mərasimləri ilə bağlı folklor mətnləri xalq arasında bugünümüzədək qorunub saxlanılıb. Onlardan birinə diqqət yetirək:

*Xıdır, Xıdır xıd gətir,*
*Dar-dərdən od gətir.*
*Mən Xıdırın nəyiyəm,*
*Bircə belə dayıyam,*
*Ayağının nalıyam,*
*Başının torbasıyam.*
*Xıdıra Xıdır deyəllər,*
*Xıdıra çıraq qoyallar,*
*Xıdır Nəbi, Xıdır İlyas,*
*Bitdi çiçək, oldu yaz.*
*Mən Xıdırın quluyam,*
*Boz atının çuluyam...*

### Bayram günü heç kim əziyyət çəkməməlidir

BDU-nun Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının dosenti, folklorşünas Məhəmməd Məmmədov “Yeni Azərbaycan”a açıqlamasında bayramın maraqlı adətlərindən söz açıb: “Hələ qədim zamanlardan bu bayramda əcdadlarımız havaların tədricən yumşalması, sərt, soyuq qışın getdikcə başa çatması ümidi ilə Xızırı layiqincə qarşılamaq, bir-birinə kömək etmək, paylaşmaq amalı ilə bayram tədbirləri keçirərdilər. Erkən inanca görə, Xızırın gəldiyi “Xızır yolu”nu görənlərin bütün arzu-istəkləri həyata keçər. Qədim adətə görə, Xıdır Nəbi bayramı günü heç kim işləməməli, əziyyət çəkməməlidir. İnanca görə, hər evdə ailə başçısı sübh tezdən yüksək bir yerdə qoyulmuş un və ya qovut üzərində “iz” görərsə, deməli, gecə Xızır gəlib və mübarək izini həmin una, qovuta çəkib. Beləliklə də, özü ilə xeyir, bərəkət, xoşbəxtlik gətirib. Həmin undan, qovutdan bir qədər götürüb səpin vaxtı buğdaya qarışdırıb səpmək üçün saxlayardılar ki, Xızırın xeyir-duası ilə torpaq bərəkətli olsun. Bu bayram gecəsində otların üzərinə düşmüş şehdən xəmir yoğurardı ki, bu da bolluq-bərəkətə yozulardı”.

### Əcnəbi səyyahların yazılarında...

Folklorşünasın sözlərinə görə, mənbələr göstərir ki, vaxtilə Azərbaycana gəlmiş əcnəbi səyyahlar, o cümlədən XIII əsrdə italiyalı Marko Polo, XVIII əsrdə alman Adam Oleari Xıdır Nəbi bayramının mərasimlərini seyr edib və öz yazılarında bəzi ayin və adətləri də təsvir ediblər: “Marko Poloya görə, bu bayram türklərin “Bəyaz” adı altında keçirdiyi bayramdır. Bayram adətlərindən danışarkən göstərib ki, bayram axşamı bir sıra inanc və ayin icra olunurdu. Məsələn, yerə ağ süfrə sərilir, onun üzərinə un səpilir, səhərisi isə həmin süfrədəki unun üzərində Xızırın, yaxud Bozatın nalının izi axtarılır, izin olduğunu yəqinləşdirdikdən sonra isə həmin süfrənin üstündəki undan çörək, yaxud kömbə bişirib hamıya paylayardılar.

Bəzi araşdırmalara görə, Xıdır Nəbi həm də “taxıl və müqəddəs ağaclara pərəstiş” bayramı kimi qəbul edilir. Bu da təsadüfi deyildir, çünki erkən dövrlərdən Yaxın Şərqdə taxıla, buğda kultuna, dənli bitkilərə inanış mövcud olub.

Təsadüfi deyil ki, islam qaynaqlarında Xızırın şəxsiyyəti ilə bağlı fikirlər arasında Xızırın ibtidai dinlərdə bitki Tanrısı kimi qəbul edilməsi də yer almaqdadır. Araşdırmalar nəticəsində Xızır bir kult olaraq türk təfəkkürünün məhsulu kimi dəyərləndirilib. Ölüb-dirilmə hadisəsilə bağlı olan Xızır tanrıçılıq görüşlərinin əsasında yaranan obrazdır”.



### Xızır şəfa verən, xeyirxah varlıqdır

M.Məmmədov qeyd edib ki, başqa mənbələrə görə, hər 500 ildən bir Xızırın cismi yenilənir, təzələnir, o, yaşıl geyimdə, boz at belində səma məclislərinə qoşulan bir obraz kimi təsvir edilir: “Türk xalq inanclarında Xızırla bağlı çoxsaylı mətn var ki, onların əksəriyyətində Xızır çətinlikdə qalmış insanları dardan qurtaran xeyirxah bir varlıq kimi təqdim edilir.

Xızır “Xıdır Nəbi” bayramının əsas iştirakçısı olmaqla yanaşı, həm də xalq yaradıcılığında geniş yayılmış mifioloji obrazdır. Keçmiş inanclara görə, Xızır şəfa verən, xeyirxah varlıqdır. Qırğızların “Manas” dastanında Manasın dünyaya gəldiyi gündən Xızırın ona dualar etməyinin şahidi oluruq. Xalq dastanlarında, o cümlədən “Şah İsmayıl və Gülzar”, “Tahir və Zöhrə” dastanlarında Xızır qəhrəmanları müşküllükdən xilas edir”.

### Bayramın maraqlı adətləri

Folklorşünasın sözlərinə görə, qışın oğlan çağı sayılan kiçik çillənin ortalarında keçirilən “Xıdır Nəbi” bayramında “Xızır süfrəsi” açılar, müxtəlif xəmir xörəkləri bişirilərdi: “Qədim inanclara görə, “Xızır gəlsin ocağına, şadlıq versin bucağına” deməklə bayrama hazırlıq görülər, xüsusən də Xıdır Nəbi günlərində səməni bişirilərdi. Bayramda adətə görə, oğlan evindən qız evinə “Xızır xonçası” gedərdi. Bu bayram qədim türk mifik düşüncəsində mövsüm mərasimləri arasında məhz kiçik çillə dövründə keçirilən, təbiətin oyanmasını, Günəş və istilik etiqadlarına bağlı olan böyük bir mərasim kompleksidir.

Təqdirəlayiqdir ki, qədim tarixi köklərə malik Xıdır Nəbi bayramı müasir dövrümüzdə həm Azərbaycanın müxtəlif bölgələrində, xüsusilə Naxçıvanda, həm Cənubi Azərbaycanda yaşayan həmvətənlərimiz, həm də Anadolu türkləri tərəfindən qeyd olunur. Göründüyü kimi, Xıdır Nəbi bayramı yazın gəlişi ilə bağlı erkən əkinçilik inanc və etiqadları ilə zəngin olan, türk mifik təfəkkürünün ulu qaynaqlarından xəbər verən mövsüm mərasimlərinin toplusu kimi müasir dövrümüzdə də öz aktuallığını itirməyib”.

*Yeganə BAYRAMOVA*

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4726
Sifariş: 214
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova